RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 151 (8744) ŞƏNBƏ, 24 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyev diplomatiyasının təntənəsi

## Azərbaycanın Avropa İttifaqı və Rusiya ilə münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyması yüksələn beynəlxalq nüfuzun göstəricisidir

**Vətən müharibəsində qələbədən sonra yaranmış yeni tarixi-siyasi reallıq Azərbaycanın regional mövqeyinin möhkəmləndirilməsini və beynəlxalq münasibətlər sistemindəki rolunun artmasını şərtləndirdi. İkinci Qarabağ müharibəsindəki hərbi-siyasi qələbə ilə Azərbaycan həm də bölgədəki statusunu daha da möhkəmləndirdi.**

İndi qalib ölkə kimi Azərbaycan qaydaları özü müəyyənləşdirir, tərəfdaşlarına, müttəfiqlərinə yeni əməkdaşlıq təkliflərini verir. Bütün görüş və çıxışlarında, müsahibələrində regionda yaranan qarşılıqlı faydalı əməkdaşlıq imkanlarından söz açan Prezident İlham Əliyev yeni reallıqların çoxşaxəli münasibətlərin dinamik inkişafına xidmət göstərdiyini bəyan edir.

İyulun 18-i və 20-də İlham Əliyevin Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel və Rusiya Prezidenti Vladimir Putinlə keçirdiyi görüşlər, bu görüşlərdə səslənən fikirlər isə bir daha Azərbaycanın artan beynəlxalq nüfuzunun real göstəricisidir.

### Əlaqələrin inkişafında yeni səhifə açılıb

Öncə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri, dövlət başçısı ilə keçirdiyi görüş və birgə mətbuat konfransında səslənən fikirlərə diqqət edək.

Bu səfər Avropa İttifaqı ilə Azərbaycan arasında əlaqələrin inkişafında yeni səhifənin açıldığını bir daha təsdiqlədi. İki saat davam edən təkbətək görüşdə aparılan danışıqlar, əlbəttə ki, Azərbaycan-Avropa İttifaqı münasibətlərinin geniş spektrini əhatə edib, siyasi əlaqələrdən məmnunluq ifadə olunub, ticarət əlaqələri, enerji təhlükəsizliyi, "Cənub qaz dəhlizi" və nəqliyyat sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib, regionda əməkdaşlığın perspektivləri haqqında fikir mübadiləsi aparılıb.

Birgə mətbuat konfransında yüksələn münasibətlər barədə ətraflı məlumat verən İlham Əliyev bu səfəri tərəfdaşlığın yaxşı göstəricisi adlandıraraq Avropa İttifaqının Azərbaycan üçün yaxın tərəfdaş olduğunu söylədi. Məhz bu tərəfdaşlıq, güclü siyasi təmaslar, əlbəttə ki, əməkdaşlığın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır.

Avropa İttifaqı həm də Azərbaycanın əsas ticarət tərəfdaşıdır. Ölkə ticarətinin demək olar ki, 40 faizi Avropa İttifaqı ilə aparılır. Prezidentin söylədiyi kimi, ötənilki ticarət dövriyyəsi demək olar ki, 9,5 milyard dollar idi. Azərbaycanın Avropa İttifaqına üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard dollar təşkil edir. Üzv dövlətlərdən 1700-dən çox şirkət Azərbaycanda fəaliyyət göstərir. Bu, həmçinin iqtisadi fəaliyyətin miqyasını nümayiş etdirir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əlaqələrdə çox fəaldır. Avropa İttifaqının 9 üzv dövləti ilə strateji tərəfdaşlıq haqqında sənədlərin imzalanması bunun təsdiqidir.

*Ardı 3-cü səh.*

## K.T.Vəliyevin Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-leytenant Vəliyev Kərim Tofiq oğlu Azərbaycan Respublikası müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi vəzifəsindən azad edilərək, Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1268 nömrəli Sərəncamı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1104, № 7, maddə 1250, № 8, maddə 1440; 2020, № 4, maddə 468, № 6, maddə 754; 2021, № 2, maddə 151) ilə təsdiq edilmiş 2 nömrəli Əlavə - "Azərbaycan Respublikasında dövlət qulluqçularının aylıq vəzifə maaşları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1.4.4-cü yarımbəndə üçüncü halda "sektor müdiri" sözlərindən sonra ", baş mühasib" sözləri əlavə edilsin.

2. 1.5.3-cü yarımbənd ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Ermənistanın təxribatları "Dəmir Yumruğ"u yenidən hərəkətə gətirə bilər

### Sülh sazişi bağlamaqdan yayınan məğlub ölkənin yeni avantüraları onu tam tənəzzülə uğradacaq

**Mənasız xəyallar girdabında çapalanan Ermənistan yaxın keçmişdə baş verənlərdən nəticə çıxarmaq istəmir.**

İşğal siyasəti yeritməsinə baxmayaraq, Ermənistana indiyədək humanist yanaşma nümayiş etdirən Azərbaycan münasibətlərin normallaşması üçün səylər göstərməkdə davam etsə də, bu ölkə vəziyyəti gərginləşdirməkdə israrlıdır. Bölgədəki sülh üçün hər zaman təhdid olan Ermənistan yenə də boynuna götürdüyü öhdəlikləri yerinə yetirməkdən yayınaraq təxribatlar törətməklə məşğuldur.

Son günlər Azərbaycan-Ermənistan dövlət sərhədində, eləcə də işğaldan azad olunmuş Şuşa ətrafında ardıcıl təxribatlar törədən ermənilər vəziyyəti qəsdən gərginləşdirmək istəyir. Bununla yanaşı, rəsmi Ermənistan Azərbaycanın sülh sazişinin bağlanılması çağırışına da reaksiya vermir.

İyulun 14-də Bakının Binəqədi rayonunun Xocasən qəsəbəsində şəhid ailələri və müharibə əlilləri ilə görüşdə çıxış edən Prezident İlham Əliyev bəyan etdi ki, Ermənistanla sülh müqaviləsini imzalamağa hazır olsaq da, onlar tərəfindən buna rəsmi reaksiya verilmir: "Qeyri-rəsmi kanallarla bizə çatan məlumat budur ki, Ermənistan buna hazır deyil. Hesab edirəm, bu çox böyük bir səhv olacaq. Necə ki, müharibə ərəfəsində və müharibə dövründə Ermənistan tərəfi böyük səhvlər buraxıb, hərbi cinayətlər törədib". Bu fikirləri ilə dövlətimizin başçısı sazişin imzalanmamasının növbəti böyük səhv ola biləcəyini Ermənistanın nəzərinə çatdırdı.

*Ardı 6-cı səh.*

## İlham Əliyevin quruculuq missiyası davam edir

### Ölkənin qərb bölgəsinə növbəti səfəri zamanı dövlət başçısı yeni layihələrin açılışını etdi

**Prezident İlham Əliyev ənənəsinə sadiq qalaraq bu il iyulun 22-də ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində də bir sıra yeni istehsal və sosialyönümlü obyektlərin açılışında iştirak etdi.**

Dövlət başçısı Gəncə şəhərinə gələrək, ilk növbədə, Ermənistanın əhaliyə və enerji infrastrukturuna raket hücumları ilə cinayət törətdiyi ərazidə oldu. Erməni faşistlərinin qətlə yetirdiyi günahsız insanların xatirəsinə ehtiram əlaməti olaraq dağılıb yerləyeksan edilmiş yaşayış binalarının ətrafına gül düzdü.

Prezident həmin gün Naftalan Mərkəzi Sanatoriyasının, eləcə də bu şəhərdə istifadəyə verilən 200 yerlik körpələr evi-uşaq bağçasının açılış mərasimində iştirak edib. Daşkəsən rayonuna səfəri çərçivəsində isə dövlət başçısı "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olub. Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak edib. Goranboy rayonunda, eləcə də Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun, Olimpiya İdman Kompleksinin açılışını edib. Bunların hər biri özünəməxsus sosial-iqtisadi əhəmiyyət daşıyan obyektdir və Prezidentimizin quruculuq missiyasının davam etdiyini təsdiqləyir.

*Ardı 5-ci səh.*

*XXXII Tokio Yay Olimpiya Oyunları*

## Tokioya fərəhlə, Bakıya zəfərlə

## Yaponiya İmperatoru Naruhito XXXII Yay Olimpiya Oyunlarını açıq elan edib

**Bu gün Tokio Milli Olimpiya Stadionunda Yay Olimpiya Oyunlarının möhtəşəm açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Yaponiya İmperatoru Naruhito XXXII Yay Olimpiya Oyunlarını açıq elan edib.

Sonra idmançıların, hakimlərin və məşqçilərin adından Olimpiya andı içilib. Olimpiya bayrağı Milli Olimpiya Stadionuna gətirilib və Olimpiya himni səsləndirilib.

Açılış mərasimi məşhur yapon tennisçi, "Böyük dəbilqə" turnirinin dördqat qalibi Naomi Osakanın Yay Olimpiya Oyunlarının məşəlini alovlandırması ilə başa çatıb.

Qeyd edək ki, mərasimin gedişində Tokio Olimpiya Oyunlarının təşkilat komitəsinin sədri Haşimoto Seyko çıxış edərək bütün çətinliklərə baxmayaraq, XXXII Olimpiadanın ölkəsində keçirilməsindən qürur duyduğunu deyib. O, müxtəlif ölkələrdən olan atletlərin idman və sülh üçün bir araya gəldiyini bildirərək Tokionun bu



prosesə mühüm töhfə verməsindən məmnunluğunu bildirib. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax isə çıxışında koronavirus pandemiyasının davam etdiyi bu çətin günlərdə Yaponiyanın mötəbər idman tədbirini yüksək səviyyədə keçirmək üçün ciddi hazırlaşdığını vurğulayıb, göstərilən əzmkarlığa görə yapon xalqına minnətdarlığını ifadə edib.

*Bax: səh. 7*

## Ermənistanı yeni xaos gözləyir

**20 iyun seçkilərindən sonra Ermənistanda iqtidar və müxalifət arasında mövcud qarşıdurmanın daha da kəskinləşəcəyinə dair verilən proqnozlar özünü doğrultmaqda davam edir, xüsusən də hakimiyyətin rəqiblərini güc və inzibati yolla sıradan çıxarması fonunda.**

Təsadüfi deyil ki, ölkəsindəki baş verənləri şərh edən erməni hüquq müdafiəçisi Larisa Alaverdyan vəziyyətin təhlükəli həddə çatdığını bildirir: "Biz dövlət səviyyəsində psixoloji terrorla üz-üzəyik. Hazırda ölkəmizdə baş verən hadisələr yalnız insan hüquqlarının pozulması deyil, həmin hüquqlara tamamilə zidd olan siyasətin adiləşməsidir".

Alaverdyan qeyd edir ki, beynəlxalq ictimaiyyət Ermənistanda baş verən pozuntulara göz yummamalı, lazımi reaksiya verməlidir: "İndi gözlənilir ki, Ermənistanın baş nazir səlahiyyətlərini icra edən, Vətəndaş Razılaşması Partiyasının sədri Nikol Paşinyan əsas təhlükə hesab etdiyi "Ermənistan" seçki blokunun sədri Robert Koçaryanı inzibati yolla sıradan çıxarmağa çalışacaq", - deyə hüquq müdafiəçisi qeyd edir.

*Ardı 6-cı səh.*

## Daşkəsən rayonunun Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 9 yaşayış məntəqəsini birləşdirən Daşkəsən-Xoşbulaq-Astaf avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Daşkəsən şəhərində yeni ümumtəhsil məktəbi binasının tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Daşkəsən şəhərində 360 şagird yerlik yeni ümumtəhsil məktəbi binasının tikintisi üçün Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Təhsil Nazirliyinə ilkin olaraq 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məktəb binasının tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Naftalan şəhərində avtomobil yollarının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naftalan şəhərində avtomobil yollarının əsaslı təmiri məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Goranboy rayonunun Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. On dörd min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Dəliməmmədli-Düzqışlaq-Bağçakürd-Dəyirmanlar-Azad-Nizami avtomobil yolunun tikintisi məqsədilə Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ilkin olaraq 3,0 (üç) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun tikintisinin başa çatdırılması üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Çin Xalq Respublikasının Sədri zati-aliləri cənab Si Cinpinə

Hörmətli cənab Sədr,

Henan əyalətində baş vermiş güclü daşqın nəticəsində çoxsaylı insan təlefatı və dağıntılar barədə xəbər məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara şəfa diləyir, təbii fəlakətin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 21-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Miqrasiya Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 7, maddə 797; 2014, № 11, maddələr 1351, 1357, № 12, maddə 1539; 2015, № 3, maddə 259, № 6, maddə 689, № 12, maddə 1436; 2016, № 2 (II kitab), maddə 214, № 6, maddələr 970, 988, 1008, № 7, maddə 1246, № 11, maddə 1794; 2017, № 7, maddə 1312, № 11, maddə 1963, № 12 (I kitab), maddələr 2218, 2257; 2018, № 1, maddə 32, № 3, maddə 386, № 6, maddə 1156, № 7 (I kitab), maddə 1434; 2019, № 1, maddə 23, № 7, maddə 1191, № 8, maddə 1380, № 11, maddə 1686; 2020, № 5, maddə 523, № 6, maddə 676, № 7, maddə 832, № 11, maddə 1333) 10.2-ci maddəsində aşağıdakı dəyişikliklər edilsin:

1. Birinci cümlədə "Azərbaycan Respublikasında qeydiyyatda olan və dənizçilik məqsədi ilə istifadə edilən gəmilərdə hər hansı dənizçi vəzifəsində işləyən" sözləri "Ticarət gəmiçiliyi məqsədilə istifadə edilən gəmidə işləyən və ya təcrübə keçən" sözləri ilə əvəz edilsin.

2. İkinci cümlədə "şəxsiyyət vəsiqəsi" sözləri "şəxsiyyət sənədi" sözləri ilə əvəz edilsin və həmin cümləyə "gəmiyə" sözündən əvvəl "ticarət gəmiçiliyi məqsədilə istifadə edilən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2021-ci il*

## "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Əlilliyi olan şəxslərin hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7 (I kitab), maddə 1386; 2019, № 3, maddə 381, № 5, maddə 797, № 8, maddə 1382; 2020, № 7, maddə 831, № 11, maddə 1335; Azərbaycan Respublikasının 2021-ci il 4 may tarixli 312-VIQD nömrəli Qanunu) aşağıdakı məzmunda 3.3-1-ci maddə əlavə edilsin:

"3.3-1. Əlillik müddəti bitdikdən sonra 6 ay ərzində əlilliyin təkrar qiymətləndirilməsi nəticəsində şəxsin əlilliyi yenidən müəyyən edildikdə, şəxs ötürülmüş müddət də daxil olmaqla, əlilliyi olan şəxs hesab edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 iyul 2021-ci il*

## K.T.Xasiyevin Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Kamil Tacid oğlu Xasiyev Azərbaycan Respublikasının Serbiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının Avstriya Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## T.T.Tağızadənin Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Tofiq oğlu Tağızadə Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## İ.Ş.Davudovun Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

İrfan Şakir oğlu Davudov Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## R.N.Sadıqbəylinin Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rövşən Nüsrət oğlu Sadıqbəyli Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## V.M.Quliyevin Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Muxtar oğlu Quliyev Azərbaycan Respublikasının Macarıstanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## T.T.Tağızadənin Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, İrlandiya Respublikasında, İslandiya Respublikasında və Danimarka Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Tahir Tofiq oğlu Tağızadə Azərbaycan Respublikasının Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığında, İrlandiya Respublikasında, İslandiya Respublikasında və Danimarka Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Q.Ə.Allahverdiyevin Azərbaycan Respublikasının Malayziyada, Myanma İttifaqı Respublikasında, Tailand Krallığında və Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qaley Əliyeviç Allahverdiyev Azərbaycan Respublikasının Malayziyada, Myanma İttifaqı Respublikasında, Tailand Krallığında və Bruney Darüssalamda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Q.M.İsrafilovun Azərbaycan Respublikasının Avstriya Respublikasında, Sloveniya Respublikasında və Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qalib Malik oğlu İsrafilov Azərbaycan Respublikasının Avstriya Respublikasında, Sloveniya Respublikasında və Slovakiya Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir sıra hərbi qulluqçularının ali zabit heyəti vəzifələrinə təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin aşağıdakı hərbi qulluqçuları göstərilən ali zabit heyəti vəzifələrinə təyin edilsinlər:

1.1. general-leytenant Osmanov Nizam Ramazan oğlu - Baş Qərargah rəisinin müavini - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisi vəzifəsindən azad edilərək, müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi;

1.2. general-mayor Əfəndiyev Ənvər Zəkəriyyə oğlu - Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin Döyüş Hazırlığı İdarəsinin rəisi vəzifəsindən azad edilərək, müdafiə nazirinin müavini - Quru Qoşunlarının komandanı;

1.3. general-mayor Əliyev Azər Əli oğlu - Hərbi Akademiya rəisinin tədris üzrə müavini vəzifəsindən azad edilərək, Əməliyyat Baş İdarəsinin rəisi;

1.4. general-mayor Seyidov Kənan Əlihüseyn oğlu - Xüsusi Təyinatlı Qüvvələr komandanının birinci müavini - qərargah rəisi vəzifəsindən azad edilərək, 5-ci Ordu Korpusunun komandiri.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## A.B.Həsənovun Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müavini - Əməliyyat Baş İdarəsinin rəisi vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 12-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. General-leytenant Ayaz Binyat oğlu Həsənov Azərbaycan Ordusunun Baş Qərargah rəisinin müavini - Əməliyyat Baş İdarəsinin rəisi vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

## Q.M.İsrafilovun Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Qalib Malik oğlu İsrafilov Azərbaycan Respublikasının BMT-nin Vyana şəhərindəki bölməsində, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, BMT-nin Sənaye İnkişafı Təşkilatı, Nüvə Enerjisi üzrə Beynəlxalq Agentliyi və Nüvə Sınaqlarının Tamamilə Qadağan Olunması üzrə Müqavilə Təşkilatı yanında daimi nümayəndəsi vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 iyul 2021-ci il*

# İlham Əliyev diplomatiyasının təntənəsi





## Azərbaycanın Avropa İttifaqı və Rusiya ilə münasibətlərinin yeni inkişaf mərhələsinə qədəm qoyması yüksələn beynəlxalq nüfuzun göstəricisidir

*Əvvəli 1-ci səh.*

Beləliklə, Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri Azərbaycanı strateji tərəfdaş hesab edir. Bu, əlbəttə ki, Azərbaycanın çox böyük nailiyyətidir və həmçinin əməkdaşlıq üçün əlavə imkanlar yaradır.

İlham Əliyev eyni zamanda enerji təhlükəsizliyi ilə bağlı məsələlərə də toxundu və bildirdi ki, "Cənub qaz dəhlizi"nin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik kəməri artıq istismara verilib. Yanvarın 1-dən bu günədək Azərbaycandan Avropa İttifaqına üzv dövlətlərə, xüsusilə də İtaliya, Yunanıstan və Bolqarıstana 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub. Avropa bazarına ixrac olunacaq təbii qazın həcminin artması da proqnozlaşdırılır.

Dövlət başçısı İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılması üçün yaranan yeni imkanlardan söz açdı və bildirdi ki, indi regionda daha əlverişli imkanlar var: "Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü yerinə yetirdi və müharibəyə son qoydu. Ona görə də indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır. Biz buna hazırıq. Bu gün biz cənab Prezidentlə planlarımızı, təşəbbüslərimizi və yeni yaranmış vəziyyətə yanaşmalarımızı geniş şəkildə müzakirə etdik. Düşünürəm ki, nisbətən qısa zamanda xoş məram və çox praqmatik yanaşma nümayiş etdirməklə, biz hələ də masa üzərində qalan məsələlərin əksəriyyətini həll edə və bölgədə geniş regional əməkdaşlığın təməlini qoya bilərik. Avropa İttifaqı bu baxımdan çox mühüm rol oynayır və əminəm ki, oynayacaq".

Əlavə edək ki, bu gün Azərbaycan şaxələndirilmiş nəqliyyat şəbəkəsinə malikdir. Azərbaycan açıq dənizə çıxışı olmayan ölkədir. Lakin buna baxmayaraq, Avrasiyada mühüm nəqliyyat və logistik hablardan birini yaratmağa nail olub.

### Avropa İttifaqı götürülmüş öhdəliklərə görə İlham Əliyevə təşəkkür edir

Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlığa strateji xarakter vermək istədiklərini söyləyən Şarl Mişel qeyd etdi ki, Avropa İttifaqı ilə Azərbaycan arasında tərəfdaşlıq, əsasən, maliyyə dəstəyinə əsaslanan işbirliyi deyil. Əksinə, bu, birgə iş aparmaq istəyinə, innovasiyalara, texnoloji mübadilələrə və iqtisadi əməkdaşlığa əsaslanan tərəfdaşlıqdır.

Qeyd edək ki, Şarl Mişel Azərbaycana səfəri çərçivəsində ölkəmizin inkişaf səviyyəsi və perspektiv inkişaf istiqamətləri ilə tanış olub. "Azərkosmos" ASC-ni ziyarət edib, İpək yolu və Ələt Azad İqtisadi zonası ilə bağlı təqdimata qatılıb. Regionlara səfər edib, Şamaxıda olub, Cümə məscidini ziyarət edib. Bu, ilk növbədə, Avropa İttifaqı Şurası Prezidentinin Azərbaycan xalqının dəyərlərinə, islam dininə hörmətinin göstəricisi kimi qiymətləndirilməlidir.

Çox sayda Şərq Tərəfdaşlığı ölkələrinə səfərini bir işarə adlandıran Şarl Mişel dedi ki, bu, Avropa İttifaqının regionda apardığı işinin işarəsidir, mesajıdır: "Bu, tərəfdaşlarla dialoq nəticəsində Avropa İttifaqının imkanlarını, resurslarını səfərbər edərək və Şərq Tərəfdaşlığına aid tərəfdaşların fərqli gözləntilərini bilərək, bizim regiondakı təhlükəsizliyə, sabitliyə, çiçəklənməyə sadiqliyimizdən irəli gəlir".

Diplomat Azərbaycan və Ermənistanla bağlı vəziyyətə də toxundu. Götürülmüş öhdəliklərə görə İlham Əliyevə təşəkkürünü bildirən Şarl Mişel tərəflər arasında atılan addımlardan söz açdı. Onun sözlərinə görə, Ermənistan tərəfindən bəzi rayonlarda basdırılan minaların xəritələrinin verilməsi, Azərbaycan tərəfindən isə əsirlərin qaytarılması ilk addımlar hesab olunur.

Şarl Mişel deyir ki, Avropa İttifaqı müxtəlif məsələlər üzrə irəliləyişə nail olmaq üçün səyləri dəstəkləməyə hazırdır. Məsələn, sərhədlərin delimitasiyası məsələsində Avropanın ekspert yardımını göstərməyə, lazım olarsa və arzu edilərsə, monitorinqini etməyə hazırdırlar.

Şarl Mişel nitqində Dağlıq Qarabağ, status və s. bu kimi ifadələr işlətmədi, hətta Ermənistanla Azərbaycan arasında hazırda olan bəzi məsələləri "mübahisə" adlandırdı. Bu göstərir ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni reallığı başa düşür və regionla bağlı siyasətində bu reallığı nəzərə alır. Bu, Şarl Mişelin nitqində də aydın hiss olundu.

Beləliklə, Aİ Azərbaycanla münasibətlərinin hazırkı səviyyəsini, Azərbaycanın əhəmiyyətini və ikitərəfli əlaqələrin inkişaf perspektivini düzgün qiymətləndirir. Erməni lobbisinin və Avropadakı ermənipərəst dairələrin təzyiqinə baxmayaraq, Aİ Azərbaycanla münasibətlərini düzgün qurur və olduqca pozitiv istiqamətdə inkişaf etdirir.

### Səmimi dostluq münasibətlərinin real təzahürü

İyulun 20-də İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə bu ölkəyə işgüzar səfəri və dövlət başçılarının görüşü öncə iki ölkə lideri arasındakı səmimi dostluq münasibətlərinin təzahürü idi.

Prezidentlər mövcud iqtisadi-siyasi əlaqələri müzakirə edib gələcək perspektivlər barədə fikir mübadiləsi apardılar. Ona görə də ekspertlər hesab edirlər ki, bu səfər regionda sülhün və təhlükəsizliyin daha da möhkəmləndirilməsinə, münasibətlərin dərinləşdirilməsinə, nəqliyyat və kommunikasiya xətlərinin açılması işinin sürətləndirilməsinə daha güclü təkan verəcək. Müsbət notlarla başlayan görüşdə regionda vəziyyətin nizamlanmasını ən mühüm məsələlərdən biri kimi dəyərləndirən Vladimir Putin sözügedən məsələyə çox böyük diqqət və əhəmiyyət verərək kompromisli qərarların tapılması istiqamətində İlham Əliyevin səylərini yüksək qiymətləndirdi.

Gələn il diplomatik münasibətlərin yaradılmasının 30 illiyinin qeyd ediləcəyini vurğulayan İlham Əliyev dedi ki, iki ölkə arasındakı iqtisadi əlaqələr çox inamla yüksəlir. İlin birinci yarısında əmtəə dövriyyəsi artıb. Eyni zamanda nəqliyyat-tranzit münasibətləri məsələsində də əməkdaşlıq fəal surətdə genişləndirilir. "Şimal-Cənub nəqliyyat dəhlizi" üzrə ötən illə müqayisədə təqribən 20 faiz çox yük daşınıb.

Rusiyanın Azərbaycan ərazisində birgə istehsalın genişləndirilməsi üzərində işlədiyini deyən Vladimir Putin bildirdi ki, ən mühüm məsələlərdən biri regionda vəziyyətin nizamlanmasıdır və bu prosesdə İlham Əliyev çox mühüm addımlar atır, bunun da nəticəsində kompromisli qərarlar tapılır. Məhz bu addımlara görə Vladimr Putin İlham Əliyevə təşşəkkür etdi: "Əlbəttə, bilirəm ki, Siz bu məsələyə çox böyük diqqət və əhəmiyyət verirsiniz. Buna görə Sizə təşəkkür etmək istəyirəm... Onlar həmişə ən mürəkkəb məsələlərdir, lakin əgər biz nizamlama istəyiriksə, - biz hamımız isə bunu istəyirik, - onda bu yolla getməliyik. İndiyə qədər biz bunu etməyə nail olmuşuq, buna görə Sizə təşəkkür etmək istəyirəm".

Prezident İlham Əliyev isə öz növbəsində regionda münaqişədən sonrakı vəziyyətə aydınlıq gətirdi. Eyni zamanda proseslərin gedişatında Rusiya Prezidentinin ortaya qoyduğu mövqe, çox vacib və həssas məsələlərin həllindəki roluna görə təşəkkürünü bildirdi. Dövlət başçısı qeyd etdi ki, hərbi əməliyyatlar başa çatandan sonra ötən səkkiz ay ərzində, yanvar ayında Moskvadakı görüş və telefon söhbətləri vəziyyətin sabitləşdirilməsi işində çox mühüm rol oynayıb: "Biz qətiyyətlə münaqişədən sonrakı dövrün maksimum ağrısız keçməsi əzmindəyik. Düşünürəm ki, ümumi səylərimizlə buna nail olacağıq".

Əlbəttə ki, Vladimir Putinin İlham Əliyevə təşəkkür etməsi, ilk növbədə, hər iki liderin mövqelərinin üst-üstə düşdüyünü və iki dövlət başçısı arasında münasibətlərin yüksək səviyyədə olduğunu təsdiqləyir.

Bu gün Azərbaycanın həm Avropa İttifaqı, həm də Rusiya ilə münasibətləri siyasi, iqtisadi, sosial, humanitar sferalar üzrə inkişaf etməkdədir. Bütün bunlar isə İlham Əliyevin yürütdüyü müstəqil xarici siyasətin təntənəsi, Azərbaycanın artan beynəlxalq nüfuzunun göstəricisidir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Milli maraqları layiqincə təmin edən siyasət

İyulun 18-də Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Azərbaycana səfərə gəldi. İyulun 22-də isə Prezident İlham Əliyev Rusiyaya işgüzar səfər etdi. Hər biri mühüm siyasi hadisə olan bu səfərlər Azərbaycanın xarici siyasət prioritetlərinin uğurla gerçəkləşdiyini, respublikamızın milli maraqlarını layiqincə təmin etdiyini göstərdi. Milli Məclisin deputatlarının açıqlamaları da bu barədədir.

### Azərbaycan-Aİ münasibətləri: yeni reallıqların doğurduğu əməkdaşlıq imkanları

***Adil ƏLİYEV,***
*Milli Məclis Sədrinin müavini,*
*Gənclər və idman komitəsinin sədri:*

- Azərbaycan hər zaman xarici ölkələrlə, beynəlxalq və regional təşkilatlarla bərabərhüquqlu tərəfdaşlığa əsaslanan münasibətlərin inkişafında maraqlı olub. Təbii ki, ölkəmizin Avropa İttifaqı ilə münasibətləri də bu prinsip əsasında inkişaf etməkdədir. Aİ Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfərini də ikitərəfli münasibətlərin gələcək inkişafı istiqamətində atılan mühüm addım kimi dəyərləndirmək olar.

Aİ Şurasının Prezidenti Mişelin Azərbaycana səfəri bizim tərəfdaşlığımızın yaxşı göstəricisidir. Biz uzun illərdir Aİ ilə müxtəlif sahələrdə işləyirik. Gündəlik çox genişdir və bizim güclü siyasi təmaslarımız, əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı təməl yaradır. Prezident İlham Əliyevin Şarl Mişel ilə iyulun 18-də keçirdiyi birgə mətbuat konfransında səsləndirdiyi fikirlər tərəflər arasındakı əməkdaşlığın dünənini, bu gününü və gələcəyini aydın şəkildə izah edir.

Əlbəttə ki, yüksəksəviyyəli qarşılıqlı səfərlər, keçirilən görüşlər, aparılan danışıqlar, imzalanan sənədlər ikitərəfli əməkdaşlığın formalaşmasında və inkişafında mühüm rol oynayıb. Bu günə kimi tərəflər arasında imzalanan Tərəfdaşlıq və Əməkdaşlıq, Viza Sadələşdirilməsi və Readmissiya sazişləri, "Cənub qaz dəhlizi" üzrə Birgə Bəyannamə, Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planı, Enerji sahəsində strateji tərəfdaşlıq üzrə Anlaşma Memorandumu və bu kimi digər mühüm sənədlər çoxşaxəli əməkdaşlığın əsaslarını müəyyənləşdirib. Azərbaycan ilə Avropa İttifaqı arasında 2018-ci il iyulun 11-də "Tərəfdaşlıq prioritetləri" sənədinin paraflanması tərəflərin qarşılıqlı hörmətə, bərabər səviyyəli əməkdaşlığa əsaslanan əlaqələrin inkişafında maraqlı olduqlarını əyani şəkildə nümayiş etdirdi. Həmin sənəddə yer alan ən mühüm məqamlardan biri tərəflərin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərin toxunulmazlığının dəstəklənməsinə sadiqliyinin ifadə olunması idi. Hazırda isə Azərbaycanla İttifaq arasında yeni sazişin imzalanması ilə bağlı danışıqlar davam etdirilir. Əminəm ki, hazırlanan saziş əməkdaşlığın yeni mərhələyə qədəm qoyması üçün önəmli sənəd olacaq.

Azərbaycan Aİ-yə üzv olan ölkələrlə münasibətlərin inkişafına böyük önəm verir. Əlbəttə ki, Azərbaycanın İttifaqa üzv ölkələrin doqquzu ilə strateji tərəfdaşlıq əlaqələrinə malik olması bunun əyani göstəricisidir. İttifaqa üzv ölkələrin üçdəbirinin Azərbaycanla strateji tərəfdaşlıq əlaqələrinə malik olması, müxtəlif sahələrdə bərabərsəviyyəli əməkdaşlığın qurulması da ölkəmizin Aİ ilə münasibətlərinin inkişafında mühüm rola malikdir.

Azərbaycanın yaxın tərəfdaşı olan Aİ ilə münasibətlərdən danışarkən ilk əvvəl iqtisadi sahədəki əlaqələrə nəzər yetirmək lazımdır. Aİ Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri zamanı iqtisadi sahədə əməkdaşlığa dair məsələlər də əsas müzakirə mövzusu oldu. Enerji təhlükəsizliyi, nəqliyyat, ticarət kimi məsələlər gündəlikdə duran əsas iqtisadi mövzulardır.

Nəzərə almaq lazımdır ki, hazırda ticarətimizin 40 faizi məhz Aİ ilə aparılır. Ötənilki ticarət dövriyyəsi təxminən 9,5 milyard ABŞ dolları olub. Azərbaycanın Aİ-ya üzv dövlətlərlə ixracının həcmi 6,8 milyard ABŞ dolları təşkil edir. Eyni zamanda ittifaqa üzv dövlətlərin 1700-dən çox şirkəti Azərbaycanda fəaliyyət göstərir. Bütün bunlar ikitərəfli iqtisadi əməkdaşlığın miqyasını nümayiş etdirir.

2020-ci ilin sonu böyük tarixi əhəmiyyətə malik layihə olan "Cənub qaz dəhlizi"nin tam istifadəyə verilməsi ilə yadda qaldı. Təbii ki, bu qlobal əhəmiyyətli layihənin reallaşmasında Azərbaycan ilə Aİ arasındakı tərəfdaşlıq münasibətləri mühüm rol oynadı. Uzun illərdir məhz Azərbaycan Aİ ilə birlikdə "Cənub qaz dəhlizi" ilə bağlı Məşvərət Şurasına sədrlik edir və şura bu iki tərəfin rəhbərliyi ilə layihənin uğurla həyata keçirilməsində önəmli rola malik olub. Onu da qeyd etmək lazımdır ki, uzun illərdir Avropanın enerji təhlükəsizliyində mühüm rola malik olan Azərbaycanın təşəbbüsü ilə bu layihənin reallığa çevrilməsi şirkətlər və beynəlxalq maliyyə institutları arasında əməkdaşlığın nadir təcrübəsi kimi də tarixə düşdü. "Cənub qaz dəhlizi" layihəsinə yatırılmış ümumi investisiyaların həcmi 33 milyard ABŞ dollarından çoxdur.

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə ilə regionda yeni reallıq yaradıb. Artıq hər kəs görür və qəbul edir ki, Azərbaycanın razılığı və iştirakı olmadan regionda hər hansısa bir layihəni reallaşdırmaq mümkün deyil. Digər tərəfdən uzun illərdir qlobal əhəmiyyətli layihələri uğurla icra edən ölkəmizin beynəlxalq arenada qazandığı etibarlı tərəfdaş imici daha da möhkəmlənib. Artıq müxtəlif dövlətlər, beynəlxalq və regional təşkilatlar heç bir tərəddüd etmədən Azərbaycan ilə əməkdaşlığa can atır.

Təbii ki, ötən illər ərazində ölkəmizin yaratdığı beynəlxalq əməkdaşlıq platforması bu gün Azərbaycanın regionda yaratdığı yeni reallıqlara uyğun şəkildə əməkdaşlığı daha da inkişaf etdirməyə imkan yaradıb. Dövlətimizin başçısının da bəyan etdiyi kimi, Azərbaycana dost və tərəfdaş ölkələr Ermənistanın işğalından azad edilən ərazilərimizin bərpasında iştirak edə bilərlər. Artıq sıralarında Avropa dövlətlərinin də olduğu bir sıra ölkələrin şirkətlərinin bu prosesə qoşulduqları məlumdur.

Digər tərəfdən müharibədən sonra kommunikasiyaların açılması regionda yeni əməkdaşlıq üçün imkanlar yaradır. Bu səbəbdən də 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatlarında əksini tapan kommunikasiyaların açılması məsələsinin həllini tapması da genişmiqyaslı əməkdaşlıq üçün yaxşı imkanlar vəd edir. Elə Prezident Şarl Mişel də ölkəmizə səfəri zamanı Aİ-nin regional əməkdaşlıq səylərində iştirak etmək arzusunu ifadə etdi. Həmçinin o, Azərbaycan-Ermənistan dövlət sərhədinin delimitasiyası məsələsində də Aİ-nin yaxından iştirak etməyə hazır olduğunu bəyan etdi. Bu da ittifaqın xoş niyyətindən xəbər verir.

Artıq bütün dünya qəbul edir ki, Azərbaycan ədaləti bərpa edib, beynəlxalq hüququn ona verdiyi imkanlardan istifadə edərək işğal olunmuş torpaqları düşməndən təmizləyib. Hər kəs bilir ki, dayanıqlı sülh və rifah naminə regionda olan ölkələr arasında əməkdaşlıq əlaqələri genişlənməlidir. Dövlətimizin başçısı İlham Əliyev Prezident Şarl Mişellə görüşdən sonra keçirilən mətbuat konfransında bir daha bəyan etdi ki, indi sülh barədə düşünmək və səhifəni çevirmək vaxtıdır və biz buna hazırıq.

Lakin Ermənistan tərəfindən səsləndirilən fikirlər bu ölkənin sülh tərəfdarı olmadığından xəbər verir. Anlamırlar ki, Ermənistan nə qədər tez öz çirkin niyyətindən əl çəkib Azərbaycanın təklif etdiyi regional əməkdaşlıqdan faydalansa, bir o qədər də tez bir zamanda acınacaqlı vəziyyətdən qurtulacaq.

### Regionda sülhün yaranmasına mane olanların cəhdləri nəticəsiz qalacaq

***Müşfiq MƏMMƏDLİ,***
*Milli Məclisin deputatı:*

- Son günlər ölkəmizin siyasi həyatı mühüm hadisələrlə əlamətdar oldu. Əvvəlcə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri, daha sonra Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri hər şeydən öncə Azərbaycanın milli maraqlarını beynəlxalq səviyyədə inamla və uğurla təmin etdiyini göstərdi.

Azərbaycanla Aİ arasında münasibətlərin hər iki tərəfin maraqları əsasında qurulduğunu və qarşılıqlı etimada söykənərək inkişaf etdiyini bir çox aspektlərdən görmək mümkündür. Məsələn, hazırda Aİ Azərbaycanın əsas qlobal ticarət tərəfdaşlarından biridir. Azərbaycanın xarici ticarət dövriyyəsinin 40 faizi Aİ üzvü olan ölkələrin payına düşür. Aİ-yə üzv dövlətləri ölkəmizdə aparıcı sərmayəçi qismində çıxış edirlər.

Siyasi sferaya gəldikdə, bu qurumun 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb. Azərbaycanla Aİ arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədi isə Prezident İlham Əliyevin diplomatiyasının mühüm nailiyyətidir. "Tərəfdaşlıq prioritetləri"ndə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə və suverenliyinə bir daha dəstək ifadə olunub.

Bu günlərdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin Azərbaycana səfəri respublikamızla bu təşkilat arasında əlaqələrin yüksələn xətlə inkişaf etdiyini göstərdi. Şarl Mişel Azərbaycana səfəri çərçivəsində "Azərkosmos" ASC-ni ziyarət etməsi, İpək yolu və Ələt Azad İqtisadi zonası ilə bağlı təqdimatda iştirak etməsi Aİ-nın ölkəmizin inkişaf səviyyəsi, eyni zamanda, perspektiv inkişaf istiqamətləri ilə maraqlanmasından xəbər verir. Aİ Şurası Prezidentinin Azərbaycanın regionlarına getməsi, Şamaxıda olması, Cümə məscidini ziyarət etməsi xalqımızın dəyərlərinə hörmətinin göstəricisi oldu.

Ermənistanda hələ də 10 noyabr üçtərəfli Bəyanatına qarşı cəfəng fikirlər eşidilməkdədir. Bu ölkənin revanşizm niyyətində olan, xülyadan ayılıb reallığı dərk etməyən siyasətçilərinin Aİ Şurası Prezidentinin səfərindən ümidləndikləri hiss edilirdi. Lakin Şarl Mişelin Bakı səfəri onların bu ümidlərinin üstündən xətt çəkdi. Məsələn, Şarl Mişel Bakıda Prezident İlham Əliyevlə keçirdiyi birgə mətbuat konfransında çıxışında "Dağlıq Qarabağ", "status" və s. bu kimi ifadələr işlətmədi, Ermənistanla Azərbaycan arasında hazırda olan bəzi məsələləri isə sadəcə "mübahisə" adlandırdı. Bu, Ermənistandakı revanşistlərə verilən aydın cavab olmaqla yanaşı, onu təsdiq etdi ki, Aİ 44 günlük müharibədən sonra yaranmış yeni reallığı başa düşür və regionla bağlı siyasətində bunu nəzərə alır.

Göründüyü kimi, Aİ Azərbaycanla münasibətlərinin hazırkı səviyyəsini, respublikamızın əhəmiyyətini və ikitərəfli əlaqələrin inkişaf perspektivini düzgün qiymətləndirir. Erməni lobbisinin və Avropadakı ermənipərəst dairələrin təzyiqinə baxmayaraq, Aİ Azərbaycanla münasibətlərini düzgün qurur və olduqca pozitiv istiqamətdə inkişaf etdirir.

Bu həftənin əsas siyasi hadisəsi olan Prezident İlham Əliyevin Rusiyaya işgüzar səfəri isə Azərbaycanla bu ölkə arasında siyasi-iqtisadi münasibətlərin qonşuluq və dostluq prinsiplərinə söykənərək daha da dərinləşdiyini göstərdi. Qeyd edək ki, Azərbaycanla Rusiya arasında qarşılıqlı siyasi, iqtisadi, humanitar və digər sahələr üzrə əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün siyasi iradə var və prezidentlərin Moskva görüşündə bu istiqamətdə postpandemiya dövrünün yaradacağı imkanları nəzərdən keçirildi.

Təbii ki, bu səfərin ən mühüm məqamı iki dövlət başçısının Azərbaycan və Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladığı 2020-ci il 10 noyabr tarixli birgə Bəyanatda nəzərdə tutulmuş məsələlərin icrası ilə bağlı vahid mövqe nümayiş etdirməsinin növbəti dəfə öz təsdiqini tapmasıdır. Hər iki dövlət başçısı bəyanatla nəzərdə tutulmuş razılaşmaların, həmçinin bütün kommunikasiyaların, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat dəhlizinin - Zəngəzur dəhlizinin açılması məsələsində vahid mövqedən çıxış edir və bəyanatın müddəalarının yerinə yetirilməsində qətiyyəti nümayiş etdirirlər.

Azərbaycanın İkinci Qarabağ müharibəsində qələbəsinin hüquqi-siyasi təsdiqi olan 2020-ci il 10 noyabr razılaşmasının icrasına əngəl törətmək istəyən kənar qüvvələrin mövcudluğu məlumdur. Prezident İlham Əliyevin Moskvada Rusiyanın dövlət başçısı ilə keçirdiyi görüş bir daha təsdiqləyir ki, regionda sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar edilməsində, qarşılıqlı etimad mühitinin yaradılmasında maraqlı olmayan həmin qüvvələrin cəhdləri heç bir nəticə verməyəcək.

### Rusiya Azərbaycanın potensialını çox gözəl dərk edir

***Sahib ALIYEV,***
*Milli Məclisin deputatı:*

- Rusiya Prezidenti Vladimir Putin çox yaxşı bilir ki, Prezident İlham Əliyev bütün hallarda milli maraqlardan çıxış etməklə yanaşı, bunu böyük dövlətlərin də maraqlarına uyğunlaşdırmağa çalışır.

Prezident İlham Əliyev üzərinə götürdüyü öhdəliklərə əməl edir və müxtəlif təzyiqlərə baxmayaraq, Azərbaycanın maraqlarına cavab verməyən heç bir razılaşmaya getmir. Prezident İlham Əliyevin Moskvaya son səfərində bir neçə diqqətçəkən məqam oldu. Onlardan birincisi, prezidentlər arasında güvənli, dost, səmimi münasibətlərin hiss edilməsi idi. Həm İlham Əliyev, həm də Vladimir Putin sözün əsl mənasında liderdirlər. Paşinyandan, Makrondan və digərlərindən fərqli olaraq, sosial legitimlikləri ilə də diqqət çəkirlər. Əhalinin çox böyük hissəsi onlara lider kimi yanaşır və hər ikisinin öz dövlətlərinin maraqları baxımından atdıqları addımın qarşılıqlı faydaya əsaslandığını, burada diktə edən və diktə olunan tərəfin olmadığını çox yaxşı bilər. Bu, iki dövlət başçısının açıqlamalarından da hiss olunurdu. Rusiya Azərbaycanla çox müxtəlif sahələrdə - innovasiya və texnologiyaların tətbiqi, birgə istehsal üzrə əməkdaşlıq edir. Putinin açıqlamalarına diqqət yetirsək görərik ki, Rusiya Azərbaycanın potensialını çox gözəl bilir və Azərbaycanla əməkdaşlıqdan ancaq fayda gördüyünün, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin hər zaman sözü və əməlinin üst-üstə düşməsinin fərqindədir. Prezident İlham Əliyev digər dövlətlərə yanaşmada olduğu kimi, Rusiya ilə bağlı da nəyi deyibsə, o yerinə yetirilib. Eyni zamanda Azərbaycan və Rusiyanın dövlət başçılarının görüşündə hiss olunurdu ki, hər iki tərəf ancaq müsbət mövqedən çıxış edirlər.

Qarabağda Rusiya hərbi kontingentinin fəaliyyəti, sərhəddəki vəziyyət, Qarabağın özündə baş verənlərlə bağlı bəzi həssas məsələlər var. Bunlar heç şübhəsiz ki, görüşdə qaldırılıb. Tərəflər bu problemlərin aradan qaldırılması əzmindədirlər. Verilən açıqlamalardan da bu hiss olunur.

Azərbaycan təkcə özünün deyil, regionun da maraqlarından çıxış etməyə çalışır. Təbii ki, bu, sonda yenə də bizim dövlət maraqlarımıza cavab verir. Məsələnin başqa tərəfi də var. Mediaya açıqlamalardan belə anladım ki, Azərbaycan və Rusiya prezidentləri ayrı-ayrı güclərin və çevrələrin regionda yaranmış hazırkı vəziyyətdən narazı olduqlarını, Ermənistanda revanşizm tərəfdarlarını həvəsləndirməklə yenidən qarşıdurma yaratmaq istədiklərini yaxşı başa düşürlər. Burada söhbət tək Makron Fransasından və orbitində fırlanan bəzi dövlətlərdən getmir. Həm də Rusiyanın özündə bəzi çevrələr var, açıq-aydın hiss olunur ki, Azərbaycanın yaratdığı reallıq ən çeşidli səbəblərdən onların da maraqlarında deyil. Şübhə etmirəm ki, bu məsələ də Rusiyanın diqqətinə çatdırılıb.

### Avropa İttifaqı Azərbaycan üçün olduqca yaxın tərəfdaşdır

***Tamam CƏFƏROVA,***
*Milli Məclisin deputatı:*

- Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin ölkəmizə səfəri mühüm əhəmiyyət kəsb edir. Aİ Azərbaycan üçün olduqca yaxın tərəfdaşdır. Şarl Mişelin ölkəmizə səfəri bunun əyani göstəricisidir. Əməkdaşlıq çərçivəsində uzun illərdir müxtəlif sahələrdə birgə işlər görülür. Eyni zamanda əməkdaşlığın şaxələndirilməsi üçün çox yaxşı əsaslar mövcuddur. Şarl Mişelin Qafqazın 3 ölkəsinə səfəri Avropanın iştirakını, Avropa gündəliyini nümayiş etdirir və bu, ölkəmizin gündəliyinə tam uyğundur.

Aİ ilə əməkdaşlığın əsas istiqamətlərindən birini enerji təhlükəsizliyinin təmin olunması məsələləri əhatə edir. Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində tarixi nailiyyətlər əldə olunub. Burada xüsusilə "Cənub qaz dəhlizi" layihəsinin tamamlanması qeyd olunmalıdır. Ötən ilin sonuncu günündə həqiqətən də tarixi əhəmiyyət kəsb edən hadisə baş verdi. "Cənub qaz dəhlizi"nin sonuncu - dördüncü seqmenti olan Trans-Adriatik kəməri istismara verildi. Yanvarın 1-dən bu günədək Azərbaycandan Aİ-yə üzv dövlətlərə 3 milyard kubmetrdən çox təbii qaz ixrac olunub.

Nəhəng nəqliyyat infrastruktur layihələri Aİ ilə Azərbaycan arasında əməkdaşlığın strateji əhəmiyyətindən xəbər verir. İkinci Qarabağ müharibəsindən sonra ötən il 10 noyabr tarixli üçtərəfli razılaşmada əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılması üçün yeni imkanlar yaranıb. Bütün kommunikasiyaların açılması münaqişədən sonrakı nizamlanmada mühüm məsələdir. İkinci Qarabağ müharibəsində qələbədən sonra işğaldan azad olunmuş ərazilərdə daha çox şirkətlər çalışacaq və daha geniş fəaliyyət olacaq. Azərbaycan işğaldan azad olunmuş ərazilərini xarici investisiyalar üçün açıq elan edib. Burada xarici investorlar üçün maraqlı ola biləcək bir neçə sahə var. Birincisi, bərpaolunan enerji mənbələridir. Azad olunmuş ərazilərin çox böyük potensialı var və ilkin hesablamalara görə, enerji istehsalının potensialı 5 min meqavat günəş və min meqavat külək enerjisi təşkil edir. Sərmayə qoyuluşu üçün digər potensial sahə kənd təsərrüfatı məhsullarının emalıdır. Çünki torpaq olduqca münbitdir və bu da xaricilər üçün cəlbedici ola bilər. Xarici sərmayə üçün cəlbedici sahə turizm ola bilər. Qarabağ və Şərqi Zəngəzur təkcə Azərbaycanın deyil, bütün regionun ən gözəl bölgələridir.

Aİ regional əməkdaşlıqda fəal iştirak etmək, həvəsləndirmək arzusundadır. Təbii ki, dayanıqlı sülh və rifah naminə regionda olan ölkələr arasında əməkdaşlıq əlaqələri genişlənməlidir. Aİ Şurasının Prezidenti Şarl Mişel ilə Azərbaycan Prezidenti İlham Əliyevin birgə mətbuat konfransında bir çox mühüm məqamlara aydınlıq gətirildi. Prezident İlham Əliyev mətbuat konfransında Azərbaycan həqiqətlərini bütün dünyanın diqqətinə bir daha çatdıraraq dövlətimizin haqlı mövqeyini qətiyyətlə bəyan etdi. Münaqişənin bitdiyi və artıq səhifəni çevirməyin, sülh barədə düşünməyin vaxtının çatmasının Prezident İlham Əliyev tərəfindən qeyd edilməsi bir daha göstərir ki, Azərbaycan hər zaman sülhə hazırdır. Azərbaycanın 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatda əks olunduğu kimi, regionda bütün kommunikasiyaların açılmasında maraqlı olması da məhz deyilənlərin əyani sübutudur.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Heydər Əliyev Mərkəzində yeni sərgi: "Nizaminin süjet və obrazları"

**İyulun 22-də Heydər Əliyev Mərkəzində "Nizaminin süjet və obrazları" adlı sərgi açılıb.**





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyi ilə birgə təşkil etdiyi sərgi dahi Azərbaycan şairi Nizami Gəncəvinin 880 illiyinə həsr olunub.

Açılış mərasimində çıxış edən Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyinin sərgi tərtibatçısı Kyuna Kazakova bildirib ki, sərgi bu ilin mart ayında Moskvada nümayiş olunub. İndi isə Rusiyanın 4 muzeyi tərəfindən həmin sərgiyə təqdim edilən eksponatlar Bakıya gətirilib. Sərgidə Rusiya Dövlət Şərq Xalqları İncəsənəti Muzeyi, Rusiya Dövlət Ermitaj Muzeyi, A.S.Puşkin adına Dövlət Təsviri İncəsənət Muzeyi, A.N.Radişev adına Saratov Dövlət Rəssamlıq Muzeyinin kolleksiyalarından istifadə olunub: "Biz çox şadıq ki, sərgi nəhayət Bakıda keçirilir. Bizim tərəfdaşımız olan Heydər Əliyev Mərkəzi bu sərgiyə peşəkarlıqla yanaşıb. Ümid edirəm sentyabrın 26-na kimi davam edəcək sərgi mədəniyyət xadimlərinin, Bakını ziyarət edən qonaqların və eyni zamanda, bütün vətəndaşların zövqünü oxşayacaq".

Sonra iştirakçılar sərgi ilə tanış olublar.

Dahi Azərbaycan şairi Nizami Gəncəvi gələcək nəsillərə "Xəmsə" adlanan poetik əsərlər toplusunu miras qoyub gedib. Buraya beş müstəqil poema daxildir - "Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi Gözəl" və "İskəndərnamə". Sərgidə nümayiş etdirilən eksponatlar Nizami Gəncəvinin illüstrasiya ənənəsini təqdim edir. Ekspozisiyadakı əlyazma, xalça, keramika və kətan üzərində təsvir edilən qəhrəmanları izləməklə tamaşaçı şairin ədəbi dünyasına səyahət etmək imkanı qazanır. Bununla da ziyarətçilər dünya ədəbiyyatına tamamilə yeni bir poetik səs, nəfəs gətirmiş Nizaminin yaradıcılığı ilə tanış olurlar. Həmin sənət nümunələri həm də Nizami Gəncəvi yaradıcılığının təsviri incəsənətə göstərdiyi sərhədsiz təsirini əks etdirir.

Nizami Gəncəvinin poemalarında rast gəlinən süjetlər onun əsərlərinin özünəməxsus "vizit kartına" çevrilib. Məsələn, bunlara Şirinin bulaqda çimdiyi məşhur səhnə və ya öküzü qüllənin başına daşıyan Bəhram Gurun sevgilisinə həsr edilmiş təsvirləri aid edilə bilər. Ekspozisiyadakı ən qədim eksponat isə XIII əsrin əvvəlinə aid gildən hazırlanan, üzərində "Xosrov və Şirin" poemasından səhnələrin təsvir olunduğu qabdır.

Ekspozisiyada Azərbaycan, Rusiya, İran, Özbəkistan təsviri incəsənət ustalarının əsərləri nümayiş olunub. Rəssamlardan Ravil Xəlilovun, Rəşid İsmayılovun, Sergey Biqosun qrafik işləri Nizami yaradıcılığının müasir qavranılma mərhələsi üçün xarakterik olan iki əks tendensiyanı təsvir edir. Bir tərəfdən, ənənəvi mövzuların seçimi tanınmış ikonoqrafiyaya müraciətə gətirib çıxarır, digər tərəfdən, təsvir edilən süjet dairəsinin genişləndirilməsinə cəhd müşahidə edilir. Buna müvafiq olaraq yeni kompozisiya şəkilləri meydana gəlir. Bu baxımdan Nikolay Rerixin "İsgəndər və dərviş" adlı kətan üzərindəki əsəri xüsusi qeyd oluna bilər.

Qeyd edək ki, sentyabrın 26-dək davam edəcək sərgidə 50-dən çox eksponat nümayiş edilir. Sərgilənən eksponatların əksəriyyəti ilk dəfə tamaşaçılara təqdim olunur.

# Azərbaycanla Rusiya arasında iqtisadiyyat sahəsində əlaqələr müzakirə olunub

**Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev iyulun 23-də Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə iki ölkə arasında iqtisadi-ticari, investisiya, nəqliyyat-logistika, tranzit və bir çox digər sahələrdə əməkdaşlığın dərinləşdirilməsi istiqamətində görülən işlərdən məmnunluq ifadə olunub.

İkitərəfli iqtisadi əlaqələrin inkişafında iş adamlarının rolu vurğulanaraq onlar arasında daha sıx əməkdaşlığın təşviq edilməsinin vacibliyi qeyd edilib. İyulun 23-də Rusiyanın Azərbaycanda işgüzar missiyasının fəaliyyətə başlamasının bu baxımdan önəmi vurğulanıb.

Eyni zamanda Azərbaycanda istehsal edilən kənd təsərrüfatı məhsullarının Rusiyaya ixracının genişləndirilməsi perspektivləri geniş müzakirə edilib. Tərəflər həmçinin ölkələrimiz arasında dəmir yolu ilə malların fasiləsiz qarşılıqlı tədarükü üçün logistik dəhlizin yaradılması məsələsinə dair fikir mübadiləsi aparıblar.

"Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizi iki ölkə arasında ticarət əlaqələrinin inkişafı baxımından prioritet olaraq dəyərləndirilib. Tərəflər nəqliyyat xidmətlərinin və nəzarət prosedurlarının təkmilləşdirilməsinin dəhliz üzrə nəqliyyat vasitələrinin hərəkətinin və yük axınının artırılmasına, eləcə də yüklərin çatdırılma müddətinin azaldılmasına xidmət edəcəyinə əminliklərini bildiriblər.

Görüşdə həmçinin nəqliyyat, logistika, tikinti, maşınqayırma, İKT, metallurgiya və dağ-mədən sahələrində fəaliyyət göstərən 10-a yaxın Rusiya şirkəti tərəfindən təqdimatlar edilib.

# "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi və "KAMAZ" ASC arasında anlaşma memorandumu imzalanıb

## Azərbaycan-Rusiya iqtisadi əməkdaşlığı inkişaf edir

Rusiya Federasiyasının iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaçın rəhbərliyi ilə iyulun 23-də Rusiya şirkətlərinin Azərbaycana işgüzar missiyası təşkil olunub.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində keçirilən işgüzar görüşdə rəsmi şəxslərlə yanaşı, nəqliyyat, maşınqayırma, tikinti, təhlükəsizlik, konsaltinq və digər sahələrdə fəaliyyət göstərən şirkətlərin rəhbərləri iştirak ediblər.

Azərbaycan və Rusiyanın strateji tərəfdaş ölkələr olduğunu qeyd edən iqtisadiyyat naziri Mikayıl Cabbarov vurğulayıb ki, ikitərəfli münasibətlərin əsas hərəkətverici qüvvəsi Azərbaycan və Rusiya dövlət başçılarının siyasi iradəsi, qarşılıqlı yüksək etimad və dostluq münasibətləridir. Nazir iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın uğurlu inkişafını diqqətə çatdırıb, iqtisadi potensialın reallaşdırılması, qarşılıqlı ticarət və investisiya əlaqələrinin genişləndirilməsi, ticarət dövriyyəsinin strukturunun şaxələndirilməsi istiqamətində görülən işlər barədə məlumat verib. Bildirilib ki, iqtisadi-ticarət tərəfdaşlığının gücləndirilməsi məqsədilə səmərəli mexanizmlər tətbiq olunur. Bu baxımdan Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyası, Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuraları əlverişli platformalardır. Rusiya ölkəmizin əsas ticarət tərəfdaşlarındandır və Azərbaycanın qeyri-neft məhsullarının ixracında birinci yerdədir. Pandemiyanın yaratdığı çətinliklərə baxmayaraq, bu ilin 6 ayında iki ölkə arasında ticarət dövriyyəsində artım müşahidə edilib.

Görüşdə ikitərəfli səmərəli investisiya əməkdaşlığı vurğulanıb, ölkəmizdə 1000-dən çox Rusiya şirkətinin fəaliyyət göstərdiyi və Azərbaycan iqtisadiyyatına Rusiya tərəfindən 6,2 milyard dollar, Azərbaycan tərəfdən Rusiya iqtisadiyyatına isə 1,2 milyard dollar investisiya yatırıldığı bildirilib. Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "KAMAZ" zavodu ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin reallaşdırılması qarşılıqlı investisiya qoyuluşu sahəsində önəmli layihələrdəndir.

İqtisadiyyat naziri Azərbaycanın əlverişli biznes və investisiya mühiti barədə məlumat verib, ərazilərimizin işğaldan azad edilməsinin yeni reallıqlar və əməkdaşlıq perspektivləri yaratdığını diqqətə çatdıraraq Rusiya şirkətlərini fəal əməkdaşlığa dəvət edib.

Qeyd olunub ki, ölkəmizdə sənaye zonalarının təşkili prosesinin davam etdirilməsi və Ələt Azad İqtisadi Zonası ikitərəfli iqtisadi əməkdaşlığın dərinləşdirilməsinə əlavə imkanlar yaradır.

İşgüzar görüşdə nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Rəşad Nəbiyev Azərbaycanın tranzit-logistika potensialının reallaşdırılması istiqamətində görülən işlər barədə məlumat verib, Rusiya ilə nəqliyyat və İKT sahəsində əlaqələrin genişləndiyini, ölkələrimizin beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafında səmərəli əməkdaşlığını diqqətə çatdırıb.

Rusiyanın iqtisadi inkişaf nazirinin müavini Dmitri Volvaç Azərbaycana səfərindən məmnunluğunu ifadə edib, ölkəsinin Azərbaycanla tərəfdaşlığa böyük önəm verdiyini, bu baxımdan yüksəksəviyyəli qarşılıqlı səfərlərin xüsusi rolunu vurğulayıb. İşgüzar dairələrin iştirakı ilə keçirilən tədbirlərin iqtisadi əlaqələrin dərinləşməsində əhəmiyyətini qeyd edən D.Volvaç nəqliyyat, sənaye, kənd təsərrüfatı, turizm, təhsil və sair sahələrdə əməkdaşlıq imkanlarını diqqətə çatdıraraq iş adamlarını böyük potensialdan yararlanmağa, əlaqələri genişləndirməyə çağırıb.

"Roseksimbank" SC-nin İdarə Heyətinin sədri Azər Talıbov ölkələrimiz arasında ticarət və investisiya tərəfdaşlığının, xarici ticarətin maliyyələşməsinin önəmini qeyd edib, Azərbaycan bankları ilə əməkdaşlıqda maraqlı olduqlarını bildirib.

Azərbaycan-Rusiya İşgüzar Şurasının sədri Səməd Qurbanov iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayıb, bu sahədə Azərbaycan-Rusiya və Rusiya-Azərbaycan işgüzar şuralarının birgə fəaliyyətini qeyd edib, Rusiya işgüzar dairələri ilə əlaqələrin genişlənməsi istiqamətində Azərbaycan-Rusiya İşgüzar Şurasının gördüyü işlər barədə məlumat verib.

Tədbirdə Rusiya şirkətlərinin rəhbərləri təmsil etdikləri müəssisələr barədə təqdimatla çıxış edib, Azərbaycandakı tərəfdaşları ilə əməkdaşlığın genişləndirilməsində və yeni əlaqələrin qurulmasında, işğaldan azad olunmuş ərazilərimizdə fəaliyyət göstərməkdə maraqlı olduqlarını ifadə ediblər.

İşgüzar görüş çərçivəsində "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi və "KAMAZ" ASC arasında anlaşma memorandumu imzalanıb. Sənəddə əməkdaşlığın yeni istiqamətləri nəzərdə tutulur.

Tədbir Azərbaycan və Rusiya şirkətləri arasında iqtisadi-ticarət əməkdaşlığının genişləndirilməsi barədə müzakirələrlə davam edib.

# Fransa Milli Assambleyasının nümayəndə heyəti Gəncədə Ermənistanın müharibə cinayətləri ilə tanış olub

İyulun 23-də Fransa Milli Assambleyasının nümayəndə heyəti Ermənistanın müharibə cinayətləri ilə yaxından tanış olmaq üçün Gəncədə səfərdə olublar.








AZƏRTAC xəbər verir ki, nümayəndə heyətini Fransa ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Soltan Məmmədov, Milli Məclisin deputatları Pərvin Kərimzadə, Naqif Həmzəyev və Müşfiq Cəfərov müşayiət ediblər.

Səfərin məqsədi Dostluq Qrupunun üzvlərini Azərbaycanın ikinci böyük şəhəri Gəncənin ayrı-ayrı məkanlarında Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir.

Qonaqlar ötən ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxlu insanın öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Diqqətə çatdırılıb ki, düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Fransa Milli Assambleyasının üzvləri Jerom Lamber, Frederik Düma, Karol Büro-Bonnar, Jan Lük Reitzer, Sandrin Morş həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq erməni terroru nəticəsində dağıdılmış yaşayış binasının ətrafına gül dəstələri düzüblər.

## *Karol BÜRO-BONNAR:* "Ermənistanın Gəncədə törətdiyi müharibə cinayətləri qəbuledilməzdir"



*"Azərbaycana artıq ikinci səfərimdir. Təəssüf ki, ilk səfərimdə işğaldan azad edilmiş torpaqlarınıza baş çəkmək imkanım olmadı. Bu gün isə bu imkanı yaradanlara öz təşəkkürümü bildirirəm. Səfərdə məqsədimiz müharibədən zərər çəkmiş və işğaldan azad edilmiş ərazilərə baş çəkmək və qayıtdıqdan sonra gördüklərimizi Fransa ictimaiyyətinə çatdırmaqdır".*

AZƏRTAC xəbər verir ki, bunu Fransa Milli Assambleyasının nümayəndə heyətinin üzvü Karol Büro-Bonnar jurnalistlərə müsahibəsində bildirib. "İstəyirik ki, Fransa ictimaiyyəti bizim vasitəmizlə düzgün informasiyanı əldə etsin. Həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan tikinti-quruculuq və abadlıq işləri haqqında məlumat verməkdir. Gəncədə gördüklərimiz bizdə təəssüf doğurdu və bu vəhşiliklər insanlığa qarşı cinayətdir. Ermənistanın burada törətdiyi müharibə cinayətləri nəticəsində mülki şəxslər həyatını itirib. Bu da qəbuledilməzdir", - deyə Karol Büro-Bonnar qeyd edib.

# Fransa Milli Assambleyasının nümayəndə heyəti Ağdamda ermənilərin törətdikləri vəhşiliklərin şahidi olub

İşğaldan azad edilmiş Ağdam şəhərinə səfər edən Fransa Milli Assambleyasının nümayəndə heyəti ermənilərin törətdikləri vəhşiliklərlə tanış olub.



AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi, eləcə də həyata keçiriləcək quruculuq işləri barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra şəhərdə və onun kəndlərində yaşayış evlərini, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb. Diqqətə çatdırılıb ki, Azərbaycan Ordusunun ötən ilin payızında 44 günlük müharibədə qazandığı zəfər nəticəsində Ağdam da işğaldan azad edilib. İndi Ağdamın yeni bərpa, quruculuq dövrü başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 28-də Ağdama səfəri zamanı avtomobil yolunun, yaşayış binasının, Sənaye Parkının, 1 saylı məktəbin yeni binasının təməlini qoyub, park-meşədə ağac əkib.

Baş plana əsasən Ağdam şəhərinin ərazisi 1750 hektar, şəhərətrafı bağlar 2450 hektar olacaq. Burada ağıllı və dayanıqlı sosial infrastruktur yaradılacaq. Şəhərdə 15 ədəd məktəb və uşaq bağçasının inşası nəzərdə tutulub. Məktəb və uşaq bağçalarının əhatə dairəsi 500 metr təşkil edir. Ağdamda ilkin olaraq şəhər sakinləri və qonaqları üçün 125 hektarlıq böyük meşə parkı salınacaq. Həmçinin Ağdamda Sənaye Parkı da yaradılacaq.

Nümayəndə heyəti stendlərdə Ağdam şəhərinin yaşayış binaları, şəhərətrafı obyektlər, yol-nəqliyyat infrastrukturunun layihələri ilə tanış olublar.

# İlham Əliyevin quruculuq missiyası davam edir

## Ölkənin qərb bölgəsinə növbəti səfəri zamanı dövlət başçısı yeni layihələrin açılışını etdi

Əvvəli 1-ci səh.

Bir daha göstərir ki, Azərbaycan təkcə erməni vandallarının dağıtdıqlarını yenidən qurmaqla kifayətlənmir, digər bölgələrimizdə iqtisadi və sosial infrastruktur layihələri həyata keçirməyə də iradəmiz və maddi gücümüz var!

Xatırladaq ki, Naftalan şəhərinin əsasını sanatoriya-kurort infrastrukturu təşkil edir. Müasir əsaslarla yeni kurortların yaradılması şəhərin turizm potensialını daha da genişləndirir. Naftalan Mərkəzi Sanatoriyasının açılışı bunu bir daha sübut edir. Ümumiyyətlə, son illər Naftalan şəhərində müasir tələblərə cavab verən 10-dan çox istirahət və sağlamlıq mərkəzi istifadəyə verilib. Hazırda fəaliyyət göstərən müəssisələr gün ərzində 3000-ə yaxın turist qəbul etmə imkanına malikdir. 2021-ci ildə daha 4 sanatoriya kompleksinin açılışı nəzərdə tutulur. Şəhər infrastrukturunun yenilənməsi, yeni sağlamlıq-istirahət mərkəzlərinin istifadəyə verilməsi yerli və xarici turistlərin Naftalana olan marağını postpandemiya dövründə daha da artıracaq.

Naftalan şəhərində 200 yerlik körpələr evi-uşaq bağçasının istifadəyə verilməsi isə son illərdə paytaxtla yanaşı, bölgələrimizdə də bir çox uşaq təhsil-tərbiyə müəssisələrində əsaslı təmir və yenidənqurma işləri aparıldığına, yenilərinin tikildiyinə daha bir nümunədir.

Goranboyda Olimpiya İdman Kompleksinin istifadəyə verilməsi də dövlətin insanlara qayğısından, onların rifahını və sağlamlığını daim diqqətdə saxlamasından irəli gəlir. Belə ki, uzun illərdir ölkəmizdə Olimpiya hərəkatı geniş vüsət alıb. Onlarca Olimpiya İdman Kompleksi tikilib. Bu da idmana marağı artırıb, gənclərin asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar açıb. Goranboyda istifadəyə verilən Olimpiya İdman Kompleksi bu qəbildən icra olunan layihələr sırasında xüsusi yer tutur.

Goranboy rayonunda ümumi uzunluğu 38 kilometr olan Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolu da dövlət başçısının müvafiq sərəncamlarına əsasən tikilib. Bu məqsədlə Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb. Avtomobil yolunun tikintisi 8 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsini yaxşılaşdırır. Bu cür yolların müasir səviyyədə inşası isə əhalinin rahatlığını təmin edən əsas sosial amildir.

İyulun 22-də Daşkəsən şəhərində yenidən qurulan su təchizatı və kanalizasiya sistemləri istismara daxil oldu. Daşkəsən rayonunda "AzerGold" QSC-nin "Çovdar" İnteqrəolunmuş Regional Emal Sahəsinin fəaliyyəti ilə tanış olandan sonra Prezident İlham Əliyev Azərbaycan televiziyasına müsahibə verdi. Daşkəsəndə yeni qızıl yatağının istifadəyə verilməsindən danışan dövlət başçısı qeyd etdi: "Qeyri-neft sektorunun inkişafı üçün bu sahə xüsusi perspektivlərə malikdir. Dağ-mədən sahəsi bizim qeyri-neft sektorumuzda aparıcı sahəyə çevrilir və perspektivlər də çox gözəldir. Bu gün həm açılışını qeyd etdik, eyni zamanda, bundan sonra görüləcək işlərlə bağlı təqdimat oldu. Təkcə qızıl yox, digər qiymətli metalların hasilatı Azərbaycanda bundan sonra daha geniş miqyasda öz həllini tapacaq. Bununla paralel olaraq, Daşkəsənin ənənəvi sahəsi olan dəmir filizi yataqlarının işlənilməsi ilə bağlı konkret planlar var. Bir müddət bundan əvvəl mənim göstərişimlə xüsusi proqram tərtib edilmişdir, dövlət investisiya resursları cəlb olunmuşdur. Bu sahə çox böyük gəlir gətirən sahə olacaq. Eyni zamanda minlərlə iş yeri yaradılacaq və idxaldan asılılıq azalacaq".

Müsahibədə Prezident cari ilin ilk altı ayının sosial-iqtisadi yekunlarını müsbət qiymətləndirdiyini də bildirdi. Belə ki, yarım illik yekunlar artıq Azərbaycan iqtisadiyyatının tənəzzüldən çıxdığını göstərir. Dövlət başçısı ilin əvvəlində iqtisadi tənəzzülün daha böyük rəqəmlərlə ölçüldüyünü, hər ay onun azaldığını və may ayının yekunlarına görə iqtisadi inkişafa nail olunduğunu bildirərək dedi: "Altı ayın yekunları isə bunu göstərir ki, bizim iqtisadiyyatımız 2 faiz artıb. Bu, yaxşı göstəricidir. Xüsusilə dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, dünya ölkələrinin böyük əksəriyyəti hələ ki, iqtisadi tənəzzüldədir. Bizim iqtisadiyyatımız isə artır və əminəm ki, ilin sonuna qədər daha da artacaq. Daha sevindirici məsələ odur ki, qeyri-neft sektorumuz 5 faizdən çox artıb. Bu, doğrudan da böyük rəqəmdir, böyük göstəricidir, görülmüş işlərin təzahürüdür".

İnflyasiya məqbul hesab edilən rəqəmlər ətrafındadır. Valyuta ehtiyatlarımız artıb. Genişmiqyaslı quruculuq işləri apardığımıza, Qarabağı və Şərqi Zəngəzuru sürətlə bərpa etdiyimizə baxmayaraq, valyuta ehtiyatlarımızı azaltmamışıq, artırmışıq və heç bir kreditə müraciət etməmişik. Bu da resurslarımızı göstərir. Azərbaycanda valyuta ehtiyatları xarici dövlət borcundan təxminən 6 dəfə çoxdur. Bu, dünyada çox nadir rast gəlinən haldır.

Daha bir müsbət rəqəm ixracla bağlıdır. Belə ki, ixrac 15 faiz artıb. 6 ayda xarici ticarətin müsbət saldosu 3,4 milyard dollar təşkil edib. Qeyd edək ki, dünya ölkələrinin əksəriyyətində saldo mənfidir, yəni onlar ixrac etdiklərindən çox idxal edirlər.

Prezident işğaldan azad olunmuş ərazilərimizdə gedən bərpa və quruculuq işlərindən də danışmış, Qarabağ və Şərqi Zəngəzuru cənnətə çevirəcəyimizi bir daha bəyan etmişdir.

İstər işğaldan azad olunmuş ərazilərimizə, istərsə də digər bölgələrimizə Prezidentin hər səfəri böyük önəm daşıyır. Çünki hər səfər, dövlət başçısının özünün də dediyi kimi, verilən tapşırıqların necə yerinə yetirildiyinə bir baxış, yeni-yeni müəssisələrin açılışı, infrastrukturun təqdimatı deməkdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ombudsman Reza Deqatini mükafatlandırıb

Reza Deqati Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüş zamanı Ombudsman müharibə zamanı azərbaycanlılara qarşı törədilən cinayətlərin, ölkəmizə qarşı təcavüz və mülki əhaliyə qarşı törədilən etnik təmizləmə siyasətinin ağır nəticələri haqqında dünya ictimaiyyətinə dolğun, obyektiv, qərəzsiz məlumatların çatdırılmasına görə Reza Deqatiyə təşəkkür edib.

Reza Deqati Birinci Qarabağ müharibəsində lentə aldığı kadrların tarixi, 44 günlük Vətən müharibəsi nəticəsində azad olunmuş ərazilərdə apardığı çəkilişlər zamanı mülki, dini obyektlərin yerlə yeksan edilməsi, bu barədə dünya ictimaiyyətinə ünvanlandığı foto və video çəkilişlər haqqında məlumat verib. Azərbaycan həqiqətlərinin yayılması istiqamətində Ombudsman institutu ilə əməkdaşlığın məqsədəuyğun olduğunu bildirib.

Görüşün yekununda Səbinə Əliyeva Reza Deqatiyə "İşğal olunmuş ərazilərdə ermənilərin törətdiyi vandalizm aktlarını, insan haqlarının pozulmasını fotoşəkillər vasitəsilə dünyaya çatdırılmasına verdiyi dəyərli töhfə üçün" fəxri diplomu təqdim edib.

# Baş Prokurorluqda cari ilin birinci yarısında görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə dair əməliyyat müşavirəsi keçirilib

**İyulun 23-də Baş Prokurorluqda 2021-ci ilin birinci yarımilində prokurorluq orqanları tərəfindən "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyətinin və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.**





Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olunub, qazilərə şəfa dilənib.

Müşavirədə çıxış edən Baş prokuror Kamran Əliyev xalqımızın zəfər salnaməsinin memarı, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu böyük qələbə konsepsiyasının Prezidentimiz, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən "Dəmir yumruq"la həyata keçirilməsi nəticəsində uzun illərdən sonra ölkəmizin ərazi bütövlüyünü bərpa edərək inkişafının keyfiyyətcə yeni mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb.

Bildirilib ki, Vətən müharibəsində əldə edilmiş hərbi-siyasi zəfərimiz Azərbaycanın regionda və dünyada mövqelərini əhəmiyyətli dərəcədə möhkəmləndirməklə ölkəmizin növbəti onilliklər üçün tərəqqisinə və qələbələrinə geniş imkanlar yaradıb, Qarabağı həyata qaytaracaq "Böyük Qayıdış"ın əsasını qoyub.

İşğaldan azad olunmuş torpaqlarımızın qısa müddət ərzində bərpa ediləcəyinə əminlik ifadə olunmaqla, dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın Şuşaya və azad olunmuş digər rayonlara səfərləri, orada üçrəngli Azərbaycan bayrağının ucaldılması, Şuşanın "Azərbaycanın mədəniyyət paytaxtı" elan edilməklə müstəqillik tariximizdə ilk dəfə "Xarıbülbül" festivalı keçirilməsinin doğma torpaqlarımızın dirçəldilməsinin təminatı olduğu vurğulanıb.

Xüsusilə qeyd edilib ki, Azərbaycan dövləti və xalqı üçün əlamətdar olan gündə - iyunun 15-də Şuşada imzalanan Türkiyə ilə Azərbaycan arasında müttəfiqlik haqqında müstəsna siyasi və tarixi əhəmiyyətə malik Bəyannamə Qarabağ zəfərindən sonra qazanılan növbəti tarixi uğur olmaqla iki dost və qardaş ölkə arasında mövcud əlaqələri və əməkdaşlığı yeni mərhələyə yüksəldib.

Münaqişənin başa çatması ilə birlikdə milli-mənəvi və ekoloji terrora məruz qalmış torpaqlarımızda başlanmış möhtəşəm quruculuq işləri, "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyalarının tətbiqi, Füzuli-Şuşa, Bərdə-Ağdam, Zəngilan-Horadiz avtomobil yollarının, həmçinin Füzuli və Zəngilan beynəlxalq hava limanlarının, Ağdam şəhərinin Baş Planının təsdiq edilməklə bir sıra infrastruktur obyektlərinin təməlinin qoyulması ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarının daha da möhkəmləndirilməsinə xidmət etməklə regionda sabitliyin və təhlükəsizliyin inkişafına töhfə verəcəyi bildirilib.

Baş prokuror diqqətə çatdırıb ki, uzun illərdən sonra torpaqlarımıza qovuşmaqda əvəzsiz xidmətləri olmuş Vətən müharibəsinin hər bir iştirakçısı, şəhid ailələri, qazilər Ali Baş Komandan İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın müstəsna qayğısı ilə əhatə edilməklə bu istiqamətdə "YAŞAT" Fondu tərəfindən həyata keçirilən tədbirlər müstəsna əhəmiyyətə malik olub.

Müşavirədə ölkəmizin 2021-ci ilin birinci yarımilində koronavirus (COVID-19) pandemiyasının yaratdığı çətinliklər və iqtisadi məhdudiyyətlərə baxmayaraq, bütün sahələrdə inkişaf tempini qoruyub saxladığı bildirilməklə görülmüş qabaqlayıcı tədbirlərlə pandemiyanın fəsadlarının aradan qaldırıldığı, həyata keçirilən uğurlu vaksinasiya strategiyası nəticəsində əhalimizin böyük bir hissəsinin peyvənd olunduğu qeyd edilib.

Beynəlxalq sahədə uğurlu xarici siyasətin davam etdirildiyi vurğulanmaqla ölkəmizdə dünya miqyaslı idman turnirləri olan "Formula 1" yarışları və ilk dəfə olaraq futbol üzrə Avropa çempionatının final mərhələsinin dörd oyununun keçirilməsi ilə respublikamızın bütün dünyaya güclü iqtisadi potensiala, zəngin mədəniyyətə, özünəməxsus dəyərlərə və ictimai-siyasi sabitliyə malik ölkə olduğunu bir daha nümayiş etdirdiyi diqqətə çatdırılıb.

Xüsusi qeyd edilib ki, 2021-ci ilin birinci yarımilində də prokurorluq orqanları Prezident İlham Əliyevin diqqət və qayğısı ilə əhatə olunub. Bu baxımdan dövlət başçısının fevralın 8-də paytaxtın Binəqədi rayonu ərazisində Baş Prokurorluğun yeni inzibati bina kompleksinin açılışında iştirakı quruma göstərilən etimadla yanaşı, prokurorluq orqanlarının fəaliyyətinin ən müasir tələblər səviyyəsində təkmilləşdirilməsi, infrastrukturunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən islahatların ardıcıllığını nümayiş etdirib.

Görülən işlərin davamı olaraq, hərbi prokurorluq orqanlarının fəaliyyətinin daha səmərəli təşkilini təmin etmək məqsədilə dövlət başçısının sərəncamı ilə Qubadlı, Kəlbəcər Hərbi Prokurorluğu və Qarabağ Hərbi Prokurorluğunun əsasında Ağdam Hərbi Prokurorluğunun yaradılması Qarabağın yenidən həyata qaytarılmasına dair dövlət siyasətinin həyata keçirilməsində mühüm önəm kəsb edir.

Dövlət başçısının dəstəyi ilə prokurorluqda müasir məzmunlu islahat tədbirlərinin davamı kimi şəffaflığın təmin olunması, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində Azərbaycan Prezidentin 2021-ci il 7 may tarixli fərmanı da müstəsna əhəmiyyətə malikdir.

Qeyd edilib ki, cari ilin birinci yarımilində prokurorluq orqanlarının fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı həyata keçirilən tədbirlərlə yanaşı, beynəlxalq tərəfdaşlarla əməkdaşlıq münasibətlərinin inkişafına da xüsusi diqqət yetirilib. Bu dövrdə Rusiya Federasiyası və Türkiyə Respublikası Ali Məhkəməsinin Baş prokurorlarının rəhbərlik etdikləri nümayəndə heyətlərinin ölkəmizə qarşılıqlı işgüzar səfərləri zamanı dövlət başçısı İlham Əliyev tərəfindən qəbul edilməsinin ikitərəfli əlaqələrin yeni müstəvidə davam etdirilməsinə hərtərəfli zəmin yaratdığı xüsusi vurğulanıb.

Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, əhalinin hər 100 min nəfərinə düşən 147 cinayətin sayına görə ölkəmizin MDB və Avropa məkanında öncül mövqeyini saxlayaraq ən təhlükəsiz və sabit dövlətlərdən biri olduğunu qeyd edib.

Bildirilib ki, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və digər hüquq mühafizə orqanları ilə birgə fəaliyyətin nəticəsi olaraq, cinayətkarlığa qarşı mübarizənin dinamikasında və strukturunda müşahidə edilən müsbət göstəricilər hesabat dövründə də davam edib, 2021-ci ilin birinci yarımilində əməliyyat-axtarış və istintaq fəaliyyətini həyata keçirən bütün dövlət orqanları üzrə 14 min 928 cinayət qeydə alınıb. Bunun yalnız 1 faizini xüsusilə ağır cinayətlər təşkil edib. Əvvəlki illərdən bağlı qalmış 207 cinayətin daxili işlər orqanları ilə birgə açılması təmin edilib, 435 cinayətkar qrup zərərsizləşdirilib.

Həyata keçirilən məqsədyönlü və qabaqlayıcı tədbirlər nəticəsində qəsdən adam öldürmə, qəsdən adam öldürməyə cəhd, qəsdən sağlamlığa az ağır və ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq, xuliqanlıq, yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, o cümlədən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərin sayı azalıb, cinayətlərin açılması 88,7 faiz təşkil edib.

Narkotik vasitələrin qanunsuz dövriyyəsi, dələduzluq, hədə-qorxu ilə tələb etmə və vergi ödəməkdən yayınma cinayətlərində artım tendensiyası qeydə alınıb ki, bu tendensiyanın səbəbləri təhlil edilməklə qarşısının alınması istiqamətində təxirəsalınmaz tədbirlər görüləcək.

Ümumilikdə ölkə üzrə cəmi 8197 cinayət işinin istintaqı tamamlanıb ki, bunlardan 671-i prokurorluq orqanlarında istintaq edilib. Prokurorluq orqanları tərəfindən 444, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 6399 cinayət işinin ittiham aktları ilə məhkəmələrə göndərilməsi təmin olunub.

Respublika üzrə ibtidai istintaqı tamamlanmış cinayət işləri üzrə ümumilikdə 174 milyon 62 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilib. İstintaq tədbirləri ilə onun 51,5 faizinin, yəni 89 milyon 683 min manatlıq hissəsi ödətdirilib. Həmçinin cinayət-prosessual qanunvericiliyinin tələblərinə əsasən, icraatına xitam verilmiş cinayət işləri üzrə cinayət məsuliyyətindən azad olunmuş şəxslər tərəfindən dövlət büdcəsinə əlavə olaraq 668 min 949 manat məbləğində pul vəsaiti ödənilib.

Hesabat dövründə Prezident İlham Əliyevin siyasi fəaliyyətinin prioritet istiqamətlərindən olan korrupsiyaya, rüşvətxorluğa qarşı barışmaz mübarizənin ötən dövrlərdə olduğu kimi davam etdirilərək bu sahədə həyata keçirilmiş kompleks tədbirlərin davamlı və tarazlaşdırılmış iqtisadi inkişafın təmin olunmasına imkan verdiyi diqqətə çatdırılıb.

Bildirilib ki, cari ilin birinci yarımilində korrupsiya hüquqpozmasına yol vermiş 267 şəxs barəsində 155 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün məhkəmələrə göndərilib, 8 milyon 785 min manat məbləğində ziyan ödətdirilib. Həmçinin cinayət-prosessual qanunvericiliyin tələblərinə əsasən təqsirləndirilən şəxslər tərəfindən dövlət büdcəsinə 1 milyon 952 min manat ödənilməklə 44 milyon manat dəyərində əmlak üzərinə həbs qoyulub.

Həmin cinayət işlərindən 72 şəxs barəsində 25 iş rüşvət alma (passiv rüşvətxorluq), 66 şəxs barəsində 43 iş rüşvət vermə (aktiv rüşvətxorluq) və şəxsi rüşvət verməyə təhrik etmə, 54 şəxs barəsində 30 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 28 şəxs barəsində 15 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 14 şəxs barəsində 8 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və digər faktlarla əlaqədar olub.

İstintaqı tamamlanaraq baxılması üçün məhkəməyə göndərilmiş cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayət işləri üzrə təqsirkar şəxslərin, o cümlədən ləğv olunmuş Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru vəzifəsində işləmiş Vüqar Səfərli, Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərov, "Yeni Klinika" tibb müəssisəsinin direktoru Pərviz Abbasov və digərlərinin korrupsiya hüquqpozmaları törətməsinə əsaslı şübhələr müəyyən edilməklə məhkəmə məsuliyyətinə veriliblər.

2021-ci ilin birinci yarımili ərzində Baş İdarədə fəaliyyət göstərən 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin 34-ü üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb, digərləri üzrə prokuror təsir tədbiri aktlarından istifadə edilməklə aidiyyəti qurumlarla əlaqəli şəkildə qabaqlayıcı tədbirlərin görülməsi təmin olunub.

Bu müddət ərzində Baş İdarənin əməliyyat qurumları tərəfindən həyata keçirilən əməliyyat tədbirləri nəticəsində 29 şəxs cinayət başında yaxalanıb, əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 60 cinayət işi başlanıb.

Bu ilin birinci yarımili ərzində Baş İdarə korrupsiya ilə mübarizədə beynəlxalq təşkilatların tövsiyələrinin, müvafiq konvensiyaların müddəalarının yerinə yetirilməsi, bu sahədə digər ölkələrin uğurlu təcrübələrinin və əldə olunmuş nailiyyətlərinin öyrənilməsi, qarşılıqlı təcrübə mübadiləsinin, ikitərəfli və çoxtərəfli tədbirlərin keçirilməsi, habelə antikorrupsiya qanunvericiliyinin təkmilləşdirilməsi və ümumilikdə beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm tədbirlər görülüb.

Belə ki, mayın 17-31-də İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən ölkəmizin 5-ci raund pilot qiymətləndirilməsi prosedurunun növbəti mərhələsi kimi virtual müsahibələr keçirilməklə ölkəmizin korrupsiyaya qarşı mübarizə strategiyası fonunda iqtisadiyyat, prokurorluq və məhkəmə orqanlarının fəaliyyəti də daxil olmaqla 13 fərqli mövzu üzrə müsahibələr aparılıb, ekspert heyətinin sualları müvafiq qurumların nümayəndələri tərəfindən cavablandırılıb.

Bundan başqa, iyunun 2-4-də Azərbaycan Respublikası Baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyəti BMT Baş Assambleyasının korrupsiyanın qarşısının alınması, onunla mübarizə və beynəlxalq əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş xüsusi sessiyasında iştirak etməklə BMT-nin nümayəndələrinin, Korrupsiya əleyhinə Konvensiyaya tərəf olan digər ölkələrin dövlət və hökumət başçıları, o cümlədən digər yüksəkvəzifəli şəxslərinin iştirak etdiyi tədbirdə məruzə ilə çıxış edilib.

Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən Vətən müharibəsi gedişində Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş cinayət əməlləri üzrə 68 cinayət işi üzrə ibtidai istintaqın aparıldığı, həmin işlər üzrə 8 şəhər, 10 qəsəbə və 519 kəndə baxış keçirildiyi bildirilib.

Müşavirədə ötən illərdən bağlı qalmış, qeyri-aşkar şəraitdə törədilmiş qəsdən adam öldürmə və digər xüsusilə ağır cinayətlərin daxili işlər və dövlət təhlükəsizliyi orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə açılması təmin edilməklə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi qeyd edilib.

2021-ci ilin birinci yarımilində Respublika Hərbi Prokurorluğu tərəfindən Müzəffər Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğu sahəsində tapşırıqlarının icrası ilə əlaqədar Müdafiə Nazirliyi, Sərhəd Qoşunları və digər qurumlarla birlikdə zəruri tədbirlərin görüldüyü, bu müddətdə erməni silahlı birləşmələrinin qanunsuz əməlləri ilə bağlı 63 cinayət işi üzrə ibtidai istintaqın davam etdirilməklə "Yerkrapa" silahlı birləşməsinin üzvləri Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan barəsində cinayət işinin məhkəməyə göndərildiyi diqqətə çatdırılıb.

Hesabat dövründə dövlət təhlükəsizliyi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət üzrə də zəruri işlər görüldüyü qeyd edilməklə Ermənistan Respublikası vətəndaşı olan terrorçu-diversant dəstələrin 53 üzvünün təqsirləndirilmələrinə dair 3, Livan Respublikasının vətəndaşı Viken Eulcekcian və Rusiya Federasiyasının vətəndaşı Eduard Dubakovun və digərlərinin, ümumilikdə 57 şəxs barəsində 6 cinayət işinin ibtidai istintaqının peşəkarlıqla aparılıb tamamlanaraq məhkəməyə göndərildiyi bildirilib. Məhkəmə baxışları davam edən həmin işlər üzrə dövlət ittihamının peşəkarcasına müdafiəsinin aparılması təmin olunmaqla toplanmış sübutlar əsasında təqsirli şəxslərə layiqli cəzanın verilməsinin tələb ediləcəyi vurğulanıb.

Eyni zamanda, qanunsuz erməni hərbi birləşmələrinin təcavüzü nəticəsində törədilmiş cinayətlər üzrə intensiv və hərtərəfli istintaqın aparıldığı diqqətə çatdırılmaqla toplanmış sübutlarla təqsiri müəyyən edilmiş şəxslərin beynəlxalq müstəvidə və yerli məhkəmələr tərəfindən məsuliyyətə cəlb olunması istiqamətində zəruri tədbirlərin icrasının davam etdirildiyi bildirilib.

Əməliyyat müşavirəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunda cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə sahəsində digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə uğurlu göstəricilər əldə olunduğu, istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə nəzarətin gücləndirildiyi, vətəndaşların müraciətlərinə baxılmasının diqqətdə saxlanıldığı qeyd edilib.

Hesabat dövründə cinayət təqibindən kənar icraatlar sahəsində inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 70 şəxs barəsində inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib. Həmçinin mülki mühakimə icraatı qaydasında və yetkinlik yaşına çatmayanların işləri üzrə məhkəmələrdə baxılmış işlər üzrə 4 nəfərin valideynlik hüquqlarının məhdudlaşdırılmasına dair məhkəmələrdə iddialar qaldırılıb, qanunsuz rəftara, əzab və işgəncələrə məruz qalmaları ilə əlaqədar 6 uşaq sığınacaq və körpələr evinə yerləşdirilib.

Prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə ağır və xüsusilə ağır cinayətlərdə ittiham olunan 12 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin olunub.

Əməliyyat müşavirəsində qeyd edilib ki, hesabat dövründə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 17 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib.

Hesabat dövründə kadr işinin düzgün təşkili və onun müasir standartlar səviyyəsində daha da təkmilləşdirilməsi, kadrların seçilib yerləşdirilməsi, vəzifədə irəli çəkilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamənin tələblərinə müvafiq olaraq müvəffəqiyyət əldə etmiş 100 namizədin təyinatlarının aparılması nəticəsində müsabiqə yolu ilə qulluğa qəbul edilmiş gənc prokurorluq işçilərinin prokurorluğun kadr korpusunun 78 faizini təşkil etməsinin ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi kimi dəyərləndirilib.

Cari ilin birinci yarımilində Azərbaycan Respublikası Prokurorluğunun başlıca fəaliyyət istiqamətlərindən olan ölkəmizin hüquq ictimaiyyəti, aparıcı elm və təhsil müəssisələri, hüquq mühafizə orqanları akademiyaları ilə əməkdaşlıq əlaqələrinin daha da inkişafına töhfə verən Baş Prokuror yanında Elmi-Məsləhət Şurasının növbəti iclasları keçirilməklə geniş müzakirələr və faydalı fikir mübadiləsinin aparıldığı diqqətə çatdırılıb.

Qeyd edilib ki, dövlət başçısının dəstəyi ilə prokurorluq orqanları əməkdaşlarının və veteranlarının sosial müdafiəsinin gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks və ardıcıl tədbirlər davam etdirilməklə Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair Dövlət Proqramının icrası ilə əlaqədar inşa edilmiş paytaxtın Xətai rayonu ərazisində 160 mənzilli yaşayış kompleksi istifadəyə verilməklə prokurorluq əməkdaşları və veteranlarından ibarət kooperativ üzvləri güzəştli şərtlərlə mənzillərlə təmin ediliblər.

Müşavirədə cari ilin aprelində təsis edilmiş "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyi ilə əlaqələrin genişlənməsinin, sabiq prokurorluq əməkdaşlarının təcrübəsindən və peşə bacarıqlarından istifadənin əhəmiyyəti vurğulanıb.

Əməliyyat müşavirəsində hesabat dövrü ərzində görülmüş müsbət işlərlə yanaşı, fəaliyyət istiqamətləri üzrə işin səmərəliliyinə mənfi təsir göstərən hallar Baş Prokurorluğun müvafiq struktur qurumlarının rəhbərlərinin iştirakı ilə ətraflı təhlil olunmaqla, istintaq işi və ibtidai araşdırmaya prosessual rəhbərliyin həyata keçirilməsi, hüquqi və fiziki şəxslərə vurulmuş zərərin ödənilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu ilə əlaqədar işin təşkilinin daim diqqət mərkəzində saxlanılması istiqamətində zəruri tədbirlərin görülməsi tələb olunub.

Xüsusilə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda şəhid olmuş və itkin düşmüş şəxslərin ailə üzvlərinin, yaxın qohumlarının, o cümlədən sağlamlığını itirmiş vətəndaşlarımızın müraciətlərinə təxirəsalınmadan baxılmaqla onların dərhal qəbul edilmələrinin təmin edilməsi, bu kateqoriyadan olan şəxslərə diqqət göstərilməsinin vacibliyi vurğulanıb.

Baş Prokurorluğun əlaqədar struktur qurumları və müvafiq tabe prokurorlar tərəfindən daxili işlər orqanları ilə əlaqəli şəkildə cari ilin birinci yarımilinin nəticələrinə görə artımı müşahidə olunan cinayətlərin profilaktikası istiqamətində zəruri tədbirlərin görülməsi, eyni zamanda, cəzanın labüdlüyü prinsipinin təmin edilməsi məqsədilə bağlı qalmış cinayətlərin açılması və təqsirkar şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün müvafiq tədbirlərin görülməsinin zəruriliyi diqqətə çatdırılıb.

Eyni zamanda, cari hesabat dövründə də koronavirus infeksiyasının yayılmasına qarşı mübarizə tədbirləri ilə əlaqədar prokurorluq orqanları tərəfindən yerli polis, digər hüquq mühafizə, icra orqanları və tibb müəssisələri ilə əlaqəli surətdə həyata keçirilən tədbirlərin davam etdirilməklə əhalinin peyvəndlənməsinin aparılması, eləcə də toy-nişan şənliklərinin keçirilməsi zamanı Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinə əməl olunması, əhalinin sanitariya-epidemioloji salamatlığının qorunmasının hüquqi vasitələrlə təmini sahələrində prokuror nəzarəti tədbirlərinin gücləndirilməsinin əhəmiyyəti qeyd edilib.

Müşavirədə intihar və intihara cəhd hadisələrinin minimuma endirilməsi və qarşısının alınması istiqamətində zəruri tədbirlərin görülməsinin vacibliyi diqqətə çatdırılmaqla iyunun 23-də Baş Prokurorluğun təşkilatçılığı ilə dövlət qurumları nümayəndələrinin iştirakı ilə keçirilmiş yüksəksəviyyəli konfransın yekunu üzrə qurumlararası İşçi qrupun yaradılmasının bu sahədə nəticələr əldə etməyə imkan verəcəyinə əminlik ifadə olunub.

Bununla yanaşı, sintetik və təbii mənşəli narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi, hazırlanması ilə bağlı cinayətlər üzrə ibtidai araşdırma və əməliyyat-axtarış fəaliyyəti üzərində prokuror nəzarəti gücləndirilməklə, cəza tədbirləri ilə yanaşı, xüsusilə gənclər arasında istehlakının təbliğ edilməsi hallarının qarşısının alınması istiqamətində daxili işlər orqanları ilə birlikdə maarifləndirmə işlərinin genişləndirilməsinin və digər zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd edilib.

Eyni zamanda, narkotik vasitələrin, psixotrop maddələrin və prekursorlarının qanunsuz dövriyyəsi ilə bağlı müvafiq normativ aktların, həmçinin digər sahələr üzrə qanunvericiliyin təkmilləşdirilməsinə dair layihələrin hazırlanaraq aidiyyəti üzrə təqdim edildiyi bildirilib.

Müşavirədə həmçinin qaz sızması və partlayışı, dəm qazı ölümü və sağlamlığa zərər vurulması hallarının qarşısının alınması istiqamətində İnzibati Xətalar Məcəlləsində, "Qaz təchizatı haqqında" Qanunda və digər aidiyyəti normativ hüquqi aktlarda dəyişikliklərin edilməsini nəzərdə tutan layihələrin hazırlandığı bildirilib. Bu kimi hadisələrin baş verməsinə səbəb olan halların aradan qaldırılması üçün məqsədyönlü tədbirlərin görülməsinin önəmi diqqətə çatdırılıb.

Əməliyyat müşavirəsində prokurorluğun fəaliyyətində səmərəliliyin artırılmasında mühüm rol oynayacaq "Elektron prokurorluq" informasiya sisteminin tətbiqi istiqamətində Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 7 may tarixli fərmanından irəli gələn vəzifələrin qısa müddətdə icrasının əhəmiyyəti qeyd olunub.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədovun hesabat dövründə görülmüş işlərə və qarşıda duran vəzifələrə dair çıxışları dinlənilib, fikir mübadiləsi aparılıb.

Əməliyyat müşavirəsinə yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu dövlətçilik siyasətini hərtərəfli dəstəkləyən prokurorluq orqanlarının digər hüquq mühafizə orqanları ilə əlaqəli şəkildə ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün bundan sonra da zəruri tədbirlər görəcəyinə əminliyini ifadə edib.

# “Şuşa Bəyannaməsi” miniatür kitabı nəşr edilib

**2021-ci ilin 15 iyunu Azərbaycan Respublikasının şanlı zəfər tarixinə xüsusi əhəmiyyəti olan bir gün kimi daxil oldu. Bu, ölkəmizin azadlığını, müstəqilliyini və dövlətimizin daimi, əbədiyaşar olduğunu bir daha sübut etdi.**




Həmin gün Azərbaycanın mədəniyyət beşiyi olan Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanan, özündə ictimai həyatımızın bir sıra aspektlərinə dair vacib məsələləri əks etdirən müttəfiqlik münasibətləri haqqında bəyannamə imzalandı. Bu bəyannamə Azərbaycanın müstəqilliyi dövründə iki qardaş respublika arasında imzalanan, hərbi təhlükəsizlik məsələlərini, onun müxtəlif parametrlərini göstərən ilk rəsmi sənəddir. Məhz bu baxımdan Şuşa Bəyannaməsi tarixi önəm daşıyaraq regionda yeni geosiyasi və geoiqtisadi münasibətlərin başlanğıcını qoydu. İllər keçəcək, gələcək nəsillər Şuşa Bəyannaməsi haqqında tarix kitablarından oxuyarkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edəcəklər. İllər ötəcək, Şuşanın fəthi və Şuşa Bəyannaməsi yazılacaq tarix kitablarının ən şərəfli səhifəsini təşkil edəcək.

Bu mənada böyük tarixi əhəmiyyət kəsb edən Şuşa Bəyannaməsini miniatür kitab şəklində çap etdirmək və oxucuların ixtiyarına vermək nəcib bir missiya, böyük vətənpərvərlik və fədakarlıqdır.

AZƏRTAC xəbər verir ki, Əməkdar mədəniyyət işçisi Zərifə Salahovanın təsisçisi və rəhbəri olduğu, dünyada analoqu olmayan Miniatür Kitab Muzeyi tərəfindən “Şuşa Bəyannaməsi” miniatür kitabı nəşr edilib.

“İndigo” mətbəəsində 100 nüsxə ilə çap olunmuş kitab 296 səhifədən ibarətdir. Forzasında Azərbaycanın və Türkiyənin bayraqları əks olunmuş kitabın ölçüsü 50x60 millimetrdir. Üç dildə - Azərbaycan, ingilis və rus dillərində oxuculara təqdim olunan kitabda 12 rəngli foto verilib. Kitabda Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında “Şuşa Bəyannaməsi”nin mətni yer alıb.

Oxucular bununla yanaşı, kitabda Azərbaycan və Türkiyə prezidentlərinin mətbuat üçün bəyanatları ilə tanış ola bilərlər.

“...İmzalanmış Bəyannamə tarixə əsaslanır. Bəyannamədə xalqlarımızın böyük liderləri, öndərləri Mustafa Kamal Atatürkün və Heydər Əliyevin kəlamları öz əksini tapıb. XX əsrin əvvəllərində Mustafa Kamal Atatürk demişdir: “Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir”. XX əsrin sonlarında Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”. Bu tarixi sözlər, kəlamlar bizim fəaliyyətimiz üçün əsas amildir. Biz bu vəsiyyətə sadiqik və XXI əsrdə azad edilmiş Şuşada Müttəfiqlik Bəyannaməsini imzalayarkən əcdadlarımıza sadiqliyimizi nümayiş etdiririk və gələcək nəsillərə yol göstəririk. Birgə Bəyannamədə tarixi Qars müqaviləsinə istinad edilir. Tarixi Qars müqaviləsi düz 100 il bundan əvvəl imzalanmışdır. Bu da böyük rəmzi məna daşıyır. Azad edilmiş Şuşa şəhərində 100 ildən sonra müttəfiqlik haqqında imzalanan Birgə Bəyannamə bizim gələcək iş birliyimizin istiqamətini göstərir.

Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlığımız, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Enerji təhlükəsizliyinin, “Cənub qaz dəhlizi”nin önəmi Türkiyə, Azərbaycan və Avropa üçün göstərilir və hər bir məsələ çox böyük önəm daşıyır. Mən onların arasında iki məsələni xüsusilə qeyd etmək istərdim. Birincisi, müdafiə sahəsində əməkdaşlıq, iş birliyi məsələsi. Müdafiə sənayesi sahəsində və qarşılıqlı hərbi yardım məsələləri bu Bəyannamədə öz əksini tapır. Bu, tarixi nailiyyətdir. Biz bir daha göstəririk ki, bundan sonra da hər zaman bir yerdə olacağıq. Bundan sonra da bir-birimizin təhlükəsizliyini təmin edəcəyik, necə ki, bugünə qədər Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq.

İkinci önəmli məsələ nəqliyyat məsələsidir. Bəyannamədə Zəngəzur dəhlizinin açılması ilə bağlı çox açıq ifadələr öz əksini tapmışdır. Bu da İkinci Qarabağ savaşından sonra yaranmış yeni geosiyasi vəziyyətin nəticəsidir. Bu gün biz Türkiyəni və Azərbaycanı dəmir yolu ilə, avtomobil yolu ilə birləşdirəcək Zəngəzur dəhlizi haqqında nəinki danışırıq, bu dəhlizi əməli işlərlə yaradırıq. Müttəfiqlik haqqında imzalanmış Birgə Bəyannamədə bu məsələnin əks olunması böyük məna daşıyır...” Bu fikirlər Prezident İlham Əliyevin bəyanatından götürülüb və onun siyasi uzaqgörənliyinin təsdiqidir.

Qeyd etmək lazımdır ki, tükənməz enerjisi olan Zərifə xanımın miniatür kitabları ölkəmizdəki bütün əlamətdar və əhəmiyyətli hadisələrin mənzərəsini əks etdirir. Təkcə müstəqillik illərində onun tərəfindən miniatür formatda ən müxtəlif təmayüllü 200-dən artıq kitab çap edilib. Zərifə Salahovanın kolleksiyasında əsas yeri Ümummilli Lider Heydər Əliyevlə bağlı kitablar tutur.

İçərişəhərdə fəaliyyət göstərən və Zərifə Salahovanın adı ilə tanınan Miniatür Kitab Muzeyində dünyanın 70-ə yaxın ölkəsində, o cümlədən ölkəmizdə çap olunmuş 6 mindən çox miniatür kitab toplanıb. Onların hər biri Zərifə xanımın gərgin axtarışları nəticəsində əldə olunub. Muzeyin ən “qocaman” kitabı isə 1672-ci ildə Səudiyyə Ərəbistanında nəşr olunan Müqəddəs “Qurani-Kərim”in nüsxəsidir.

# Gənclər ölkədə gedən proseslərin fəal iştirakçılarıdırlar

## YAP Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində seminar keçirilib



İyulun 23-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin “Davamlı İnkişaf Məktəbi” layihəsi çərçivəsində “Gənclər üçün çeşidli imkanların yaradılması və iştirakçılığın artırılması istiqamətində dövlət siyasəti” mövzusunda seminar keçirilib.

Tədbiri açan YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ölkəmizdə uğurlu gənclər siyasətinin həyata keçirildiyini bildirib. O qeyd edib ki, iyulun 26-da Gənclər və İdman Nazirliyinin yaradılmasının növbəti ildönümü tamam olur. Nazirlik gənclərlə bağlı önəmli layihələr həyata keçirir ki, bu da gənc nəsil tərəfindən rəğbətlə qarşılanır.

“Gənclər üçün çeşidli imkanların yaradılması və iştirakçılığın artırılması istiqamətində dövlət siyasəti” mövzusunda təqdimatla çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycanda dövlət gənclər siyasətinin əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib. Onun sözlərinə görə, 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi tarixi hadisə olub.

Nazir müavini söyləyib ki, Azərbaycanda gənclər siyasətinin əsas hədəfi gənclərin hərtərəfli inkişafını təmin etməkdir. Bununla bağlı dövlət tərəfindən ardıcıl siyasət həyata keçirilir. İ.Babayev deyib ki, dövlətimizin prioritet istiqamətlərindən biri də bu sahə ilə bağlıdır. Məqsəd gənclərin hərtərəfli inkişafı, mükəməl təhsil almaları, müxtəlif sahələr üzrə potensiallarının aşkar edilərək bacarıqlarının stimullaşdırılması üçün bütün imkanların yaradılmasıdır.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2015-ci ildə “Azərbaycan Gənclərinin İnkişafı Strategiyası” təsdiqlənib. Bu strategiyanın əsas hədəfi gənclərimizin potensialını müasir dövrün tələbinə uyğun inkişaf etdirmək və həmin potensialdan ölkəmizin mənafeyi naminə istifadə etmək, yeni nəsildə fəal vətəndaşlıq mövqeyini formalaşdırmaqdır. Hazırda gənclərlə bağlı 2017-2021-ci illəri əhatə edən dövlət proqramı həyata keçirilir. Artıq bu proqram başa çatmaq üzrədir. 2022-2026-cı illəri əhatə edən yeni dövlət proqramının hazırlanması üzərində iş gedir. Müvafiq dövlət proqramlarının hazırlanmasında gənclər də fəal iştirak edir, onların fikir və təklifləri nəzərə alınır.

Nazir müavini diqqətə çatdırıb ki, gənclər ölkədə gedən proseslərin fəal iştirakçılarıdırlar. Onlar vətənimizi beynəlxalq müstəvidə də layiqincə təmsil edirlər.

İ.Babayev söyləyib ki, 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğaldan azad olunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi ötən ilin ən mühüm hadisəsi oldu. Ali Baş Komandanımızın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu bu tarixi missiyanı şərəflə yerinə yetirdi. Bu missiyada da əsas yük dövlət başçısının dediyi kimi, gənc nəslin üzərinə düşdü. Qəhrəman Azərbaycan gəncləri ön cəbhədə mətanətlə döyüşdülər. Arxa cəbhədə olan gənclərimiz isə sosial şəbəkələrdə və digər sahələrdə informasiya müharibəsində fəal iştirak edərək böyük qələbəyə öz töhfələrini verdilər. Qarabağın quruculuq işlərinə gənclərin cəlb edilməsi məsələsinə toxunan İ.Babayev deyib ki, bu bölgənin dirçəldilməsi istiqamətində də gənclərimiz öz töhfələrini vermək əzmindədirlər.

***Aydan XƏLİLOVA,***
***“Azərbaycan”***

# Ermənistanın təxribatları “Dəmir Yumruğ”u yenidən hərəkətə gətirə bilər

## Sülh sazişi bağlamaqdan yayınan məğlub ölkənin yeni avantüraları onu tam tənəzzülə uğradacaq

***Əvvəli 1-ci səh.***

### İtirən Ermənistan olacaq

Milli Məclisin deputatı, tarix elmləri doktoru Anar İsgəndərovun fikrincə, Ermənistan sülh sazişini gecikdirsə də, ondan imtina edə bilməz. Çünki 44 günlük müharibə nəticəsində Azərbaycan tarixi torpaqlarına sahib duraraq onu düşmən işğalından azad etdi və 10 noyabrda Bəyanat imzalandı.

Deputatın qənaətinə görə, Ermənistan sülh sazişindən imtina edərsə, itirən o olacaq. Bu halda iqtisadiyyatı bərbad vəziyyətdə olan, ordusuz qalan Ermənistan üçün qorxulu vəziyyətin yaranacağı qaçılmazdır: “Prezident İlham Əliyev Ermənistanla hər an sülh sazişi imzalamağa hazır olduğunu bəyan edir. Bu şərtlə ki, Ermənistandakı revanşist düşüncələr aradan qaldırılsın, iki xalq və iki dövlət arasında səmimi münasibətlər yaransın. Bu sülh sazişindən təkcə Azərbaycan və Ermənistan deyil, qonşu dövlətlər -İran, Türkiyə, Gürcüstan, Rusiya da bəhrələnsin”.

Anar İsgəndərov hesab edir ki, Ermənistan bu sazişdən imtina edirsə, onda bu dövlətlərin də maraqları təmin olunmur. Bu maraqların təmin olunması, regionda sülhün, əmin-amanlığın yaradılması üçün sazişin imzalanmasına böyük ehtiyac var. Sülh sazişi imzalanmadan bölgənin ümumi inkişafından danışmaq mümkün deyil.

Deputat bugünkü Ermənistan ərazisinin Azərbaycanın tarixi torpaqları olmasının bütün dünyaya bəlli olduğunu da xüsusi vurğulayır: “Tarix sübut edir ki, Ermənistan tarixi Azərbaycan torpaqlarında yaranıb. Eramızın 4-cü əsrindən sonra Ermənistan deyilən dövlət tarixdə olmayıb. Bu dövlətin növbəti yaranışı 1918-ci il mayın 28-nə təsadüf edir. Bir gün sonra isə Azərbaycanın Milli Şurası İrəvanın Ermənistana verilməsi ilə bağlı qərar qəbul edib. Bu məcburiyyətdən olan qərar idi. Ermənilər o zaman da özlərinin iç üzünü göstərdilər. Bir tərəfdən özlərini guya Azərbaycanla dostluq münasibətləri yaradacaq kimi apardılar, digər tərəfdən isə Azərbaycan torpaqlarına qarşı iddialar irəli sürdülər. Bunun nəticəsi olaraq, Zəngəzurda, Göyçədə, Naxçıvanda, Qarabağda və digər ərazilərdə azərbaycanlı əhaliyə qarşı soyqırımı həyata keçirdilər”.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyev “Zəngəzur dəhlizi” ifadəsini işlədərkən bir daha dünyaya bəyan etdi ki, bugünkü Ermənistan deyilən dövlət Azərbaycan torpaqlarında yaranıb. Bunu bilmək üçün çox da uzağa getmədən görmək olar ki, əvvəlcə Azərbaycan torpaqlarrında erməni vilayəti, sonra İrəvan quberniyası, daha sonra Ararat Respublikası yaradılıb. Bu ərazidəki toponimlərin hamısının türk mənşəli olması da bu torpaqların tarixi torpaqlarımız olduğunu sübut edir.

Anar İsgəndərov deyir ki, Azərbaycan tarixçiləri də bugünkü Ermənistan torpaqlarının Azərbaycan torpaqları olduğunu faktlarla sübut ediblər: “Azərbaycan hər an öz tarixi torpaqlarına sahib olmağa hazırdır və bunun uğrunda mübarizə aparır. Ermənistan yenidən revanşist düşüncələrə üstünlük versə, faşist düşüncəsindən əl çəkməsə, yenidən öz havadarlarına üz tutsa, dövlət başçısının dediyi kimi, budəfəki “dəmir yumruq” daha ağır olacaq”.

### Zəngəzur, Göyçə və İrəvanın geri qaytarılması gündəmə gələ bilər

Milli Məclisin deputatı, tarix elmləri doktoru Musa Qasımlının fikrincə, Ermənistanın sülh sazişini bağlamaqdan imtina etməsi Azərbaycanın ərazi bütövlüyünü, sərhədlərini tanımaması anlamına gəlir. Bu o deməkdir ki, Ermənistan Azərbaycan ilə mehriban qonşular kimi sülh şəraitində, dinc yanaşı yaşamaqdan imtina edir. Belə bir xəttin yekunu isə Ermənistan üçün fəlakətdən başqa bir şey olmayacaq: “Yeni müharibə qurama Ermənistan dövlətinin dünyanın siyasi xəritəsindən silinməsinə gətirib çıxara bilər. 44 günlük müharibənin nəticəsi ermənilərə dərs olmalıdır. Ermənistan Azərbaycanın dünya birliyi tərəfindən qəbul edilmiş ərazi bütövlüyünü və sərhədlərini tanımalıdır. Əks təqdirdə özünü dünya birliyinə də qarşı qoymuş olur. Ermənilər unutmamalıdırlar ki, onlar Cənubu Qafqazda aborigen deyil, gəlmədirlər və indiki Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıb. İrəvanı da Azərbaycan onlar üçün paytaxt olaraq verib”.




Musa Qasımlı hesab edir ki, Ermənistanın hər hansı avantürist hərəkəti tarixi Azərbaycan torpaqları olan Zəngəzur, Göyçə mahalı, İrəvanın geri qaytarılması məsələsini gündəliyə gətirə bilər: “Bu məsələdə tarixi ədalət Azərbaycanın tərəfindədir. Tarixi ədaləti bərpa etmək üçün hüquqi, siyasi və digər mexanizmlər işə salına bilər. Ermənistan ağlını başına yığmasa, heç bir gələcəyi olmayacaq”.

### Ermənistanın manevr imkanı yoxdur

Milli Məclisin deputatı Elşad Mirbəşiroğlu deyir ki, Ermənistanın sülh sazişindən imtina etməsi hər şeydən əvvəl onun iddialarından əl çəkmədiyini göstərir.

Deputat bu fikirdədir ki, Ermənistan təcavüzkar dövlətdir və kənar siyasi dairələrin əlində Cənubi Qafqaz regionunda qarşıdurmalar, münaqişə ocaqları yaratmaq üçün bir alətdir. Bu, həm də onun göstəricisidir ki, Ermənistan müstəqil deyil, təkbaşna qərar verə bilmir. Əks təqdirdə, o, yaranmış vəziyyətin özü üçün də çıxış yolu olduğunu dərk edərdi: “44 günlük müharibənin ilk günlərindən ağır məğlubiyyətə uğrayan Ermənistan nəhayət görməli idi ki, həyata keçirdiyi təxribatların, işğalçılıq siyasətinin ən ağır zərbələri məhz onun özünə dəyib. Müstəqilliyi dövründə heç bir uğura imza ata bilməyən təcavüzkar Ermənistan, heç normal, müstəqil dövlət kimi də formalaşa bilməyib. Bu ölkədə demoqrafik sahədə də geriləmə müşahidə olundu. Qonşulara qarşı tarixən irəli sürdüyü əsassız iddialar ermənilər üçün böyük itki ilə nəticələnib. Təkcə 44 günlük müharibədə Azərbaycanın əks-hücum əməliyyatları nəticəsində təcavüzkar Ermənistan ordusu on min nəfərə qədər itki verdi. Azsaylı ermənilərin demoqrafik göstəricilərində bu, özünü aydın göstərəcək. Bütün bunlar bir daha sübut edir ki, ermənilərin yeganə çıxış yolu qonşularla dinc yanaşı yaşamağı öyrənmələridir”.

Elşad Mirbəşiroğlu əlavə edir ki, bunu dərk etməyən Ermənistan yenə təxribatlarını davam etdirir. Bunun nəticəsi isə onun üçün ağır ola bilər. Ermənistan sülh sazişini imzalamaqdan yayınmaqla, vəziyyətinin az da olsa düzələcəyinə ümid edir. Bu ümidi ona həm də Fransa başda olmaqla, bəzi Qərb dairələri verirlər. Əslində, bu dairələr ermənilərin vasitəsilə regionda gərginliyi saxlamaqla, orada öz mövcudluqlarını təmin etməyə çalışırlar, eyni zamanda, Ermənistanı növbəti təxribatlara sövq edirlər: ağır məğlubiyyətə uğramış Ermənistan sülh sazişini hansı şərtlər altında imzalayacağını da yaxşı bilir. Bu məğlubiyyətin daha ciddi şəkildə rəsmiləşdirilməsi təbii ki, iqtidar üçün olduqca çətindir. Ona görə də Ermənistan hakim dairələri Azərbaycanla mübarizə apardıqları görüntüsünü yaratmağa çalışırlar. Bununla gələcək ictimai qınağı az da olsa, neytrallaşdırmaq ümidindədirlər. Ən azından Paşinyan ağır siyasi depresiyadan sonra sülh müqaviləsini tez bir zamanda imzalamaqdan yayınmağa çalışacaq. Sadəcə olaraq, çalışacaq, amma heç bir nəticə əldə etməyəcək. Çünki Azərbaycan öz güc mövqeyini elə qətiyyətlə formalaşdırıb ki, proseslər yalnız ölkəmizin istəyinə və maraqlarına uyğun şəkildə cərəyan edəcək”.

Elşad Mirbəşiroğlunun qənaətinə görə, Ermənistan rəhbərliyinin heç bir manevr imkanı mövcud deyil. Digər tərəfdən də, Ermənistanın təxribatları həm də Rusiyaya qarşı yönəlib. Çünki Rusiya da regionda sülhyaratma missiyasını həyata keçirir. Ermənistanın təxribatları isə Rusiyanın bu istiqamətdə imicinə ciddi şəkildə zərbə vurur.

Politoloq hesab edir ki, bu, rəsmi Moskvanın da ciddi diqqət ayırması vacib olan məsələdir. Suverenliyimizin bütün ərazilərimiz boyunca dönməz şəkildə təmin olunması strategiyası uğurla həyata keçirilməkdədir. Təbii ki, bu, Ermənistanın daha da küncə sıxılmasını şərtləndirir. Belə olan halda çıxılmaz vəziyyətdə qalan Ermənistan müqavimət imitasiyası ilə məşğul olur. Lakin istənilən halda Ermənistan öz vəziyyətini daha da ağırlaşdırır: “Azərbaycanın tarixi ərazilərində kənar dəstək hesabına özlərinə dövlət qurmuş ermənilər bundan sonra normal şərtlər daxilində mövcud olmaq istəyirlərsə, Azərbaycana olan ərazi iddialarından əl çəkməlidirlər. Onlar artıq bir dəfə Azərbaycan torpaqlarında özlərinə dövlət yaradıblar. Prezident İlham Əliyevin dediyi kimi, biz öz torpaqlarımızda ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcəyik. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim tarixi torpaqlarımızdır. Bu torpaqları biz unutmuruq və ermənilərə də buna xatırlatmaqda fayda var”.

### İlham Əliyevin qətiyyətli fikirləri Azərbaycanın gücünün göstəricisidir

Ermənistan regionda yaranan yeni reallıqları qəbul etmək istəmir. Buna görə də ona ərazi iddialarının əsassız olduğunun, Azərbaycanın tarixi ədaləti bərpa edərək öz torpaqlarını işğaldan azad etdiyini, Ermənistan dövlətinin tarixi torpaqlarımızda yaradıldığının dəfələrlə xatırladılmasına ehtiyac var.

Şəhid ailələri və müharibə əlilləri ilə görüşü zamanı Prezident İlham Əliyev bir daha Ermənistana mesaj göndərdi: “Bütün Zəngəzur - Şərqi və Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. İndi Ermənistanda deyirlər ki, İlham Əliyev ərazi iddiası ilə çıxış edir. Əgər Şərqi Zəngəzur varsa, deməli, Qərbi Zəngəzur da var. Bəli, Qərbi Zəngəzur bizim dədə-baba torpağımızdır. Biz oraya qayıtmalıyıq və qayıdacağıq və qayıdırıq. Heç kim bizi dayandıra bilməz. Mütləq qayıdacağıq, çünki bunun başqa yolu yoxdur”.

Prezident yenidən Ermənistana bu tarixi həqiqətləri xatırladaraq onların bu dövlətin hansı torpaqların hesabına qurduqlarını nəzərə çatdırdı, azərbaycanlıların öz tarixi torpaqlarına qayıdacağı mesajını verdi.

AMEA Qafqazşünaslıq İnstitutunun Qafqaz siyasəti şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, Elnur Kəlbizadə deyir ki, Prezident İlham Əliyevin Zəngəzurun, İrəvanın, Göyçənin tarixi Azərbaycan torpaqları olması ilə bağlı fikirlərini açıq şəkildə ifadə etməsi, ilk növbədə, Azərbaycan dövlətinin gücünü göstərir.

Onun sözlərinə görə, əgər Ermənistan Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinə iddialarından hələ də əl çəkmirsə, bu mövzulardan manipulyasiya vasitəsi kimi istifadə edirsə, Azərbaycan tərəfi niyə tarixi həqiqətləri deməsin?!

Politoloq Azərbaycanın artıq regionun geosiyasi aktorlarından birinə çevrildiyini, yürütdüyü siyasətlə, əməli fəaliyyətlə ədalətsiz konfiqurasiyanı dəyişdirdiyini söyləyir. O, əlavə edir ki, iqtisadi və siyasi baxımdan sıradan bir region dövləti olmaq, ya da sadəcə Cənubi Qafqazın lider dövləti olmaqla, regional proseslərin həllinə təsir göstərən geosiyasi aktora çevrilmək fərqli məsələlərdir. Çünki indiyə qədər formalaşmış bir konfiqurasiya vardı, hər kəsin rolu bəlli idi. İndi isə Azərbaycan dövləti yürütdüyü siyasətlə, əməli fəaliyyətlə bu konfiqurasiyanı, həm də ədalətsiz konfiqurasiyanı dəyişdirir. Bu məqamda təbii ki, digər geosiyasi aktorlar birbaşa yolla təsirlər, dolayı yolla təzyiqlər göstərməyə, hansısa məsələlərdə manipulyasiyalar etməyə çalışacaqlar: “Bu, bizim əzmimizi azaltmamalıdır. Əksinə, millət olaraq bizi daha da ruhlandırmalıdır. Çünki sıradan, formal müstəqil olan ölkələrə qarşı heç zaman belə təsirlər olmur. Cənab Prezidentin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarını yaratması tarixi yaddaşımızın bərpası üçün çox əhəmiyyətli məsələlərdir. Prezident İlham Əliyev zamanın gərdişini və ermənilərin pis vərdişini geriyə çevirdi. Qarabağ məsələsində tarixi ədaləti bərpa etdi. Tarixdə ilk dəfə olaraq biz hansısa məsələni mübahisə predmetinə çeviririk. Həm də ermənilərdən fərqli olaraq biz özgə torpağından deyil, tarixən bizim olan ata-baba yurdlarımızdan danışırıq”.

Elnur Kəlbizadə bildirir ki, Zəngəzurun tarixi taleyi hər zaman Azərbaycan ərazisində yaranmış dövlət və imperiyalarla birbaşa bağlı olub. Zəngəzur adlanan tarixi coğrafi məkan bir vaxtlar Eldənizlərin, Ağqoyunluların, Qaraqoyunluların, Səfəvilərin, Əfşarların idarəsində olub. XVIII əsrin ortalarında bölgənin qərb hissəsinin böyük bir qismi Naxçıvan xanlığının, şərq hissəsi isə Qarabağ xanlığının tərkib hissəsi idi. Mənbələrdə bu bölgəyə aid əksini tapmış toponimlərin böyük əksəriyyəti türk dilindədir. Hətta ermənilərin Qafqaza köçürülməsindən sonra, XIX əsrin 80-90-cı illərində belə, bölgənin azərbaycanlı - müsəlman-türk əhalisi əksəriyyəti təşkil edib. Cümhuriyyət dövründə Zəngəzur Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi olub. Zəngəzurun qərb hissəsinin Ermənistana verilməsinin tarixi bəllidir: “Sənədlərdə yazılanları bu gün erməniləri himayə edənlər də çox gözəl bilirlər. Bu baxımdan cənab Prezident tarixi torpaqlarımızdan bəhs edərkən, azərbaycanlıların o torpaqlara qayıtmasından danışarkən həm tarixə, həm də Ermənistanın imzaladığı üçtərəfli Bəyanata - hüquqa əsaslanır. Əgər sənəddə qaçqınların öz torpaqlarına qayıtması əksini tapıbsa, deməli, həm də XX əsrin 80-90-cı illərində öz dədə-baba torpaqlarından didərgin salınmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin də hüquqları bərpa olunmalıdır”.

Təbii ki, Ermənistan yenə də atacağı addımların hansı nəticələr verəcəyini düşünməyərək yeni “nələr”sə əldə etməyə çalışır. Bir neçə ay əvvəl baş verən Vətən müharibəsinin acı nəticəsindən dərs almayan Ermənistan hələ də böyük xülyalar içindədir. Lakin Ermənistan unudur ki, onların “məğlubedilməzlik” mifini darmadağın edən Azərbaycan hər bir vəziyyətə, hətta müharibəyə belə hazırdır və o, bu müharibədən zəfər bayrağını dalğalandırmaqla qalib kimi çıxacaq.

Bu dəfə Ermənistana güzəşt olacaqmı?! Bax bunu artıq Ermənistan düşünməlidir. Və dərk etməlidir ki, daha da acınacaqlı duruma düşməməkdən ötrü onun Azərbaycanla sülh şəraitində yaşamaqdan başqa yolu yoxdur. O, sülh sazişinin bağlanılması təklifini qəbul etməlidir, əks halda, bunun nəticələrinə də hazır olmalıdır.

***İlhamə İSABALAYEVA,***
***“Azərbaycan”***

# Ermənistanı yeni xaos gözləyir

***Əvvəli 1-ci səh.***

Bu yerdə bildirək ki, Nikol Paşinyan və Robert Koçaryan deputat mandatlarından imtina ediblər. Paşinyan yenidən baş nazir seçiləcəyi üçün deputat mandatını götürməyib. Ermənistanın keçmiş prezidenti Robert Koçaryan isə icra strukturunda işləməyə adət etdiyini bildirərək parlament üzvlüyündən imtina edib. Keçmiş prezident bununla belə, müxalifətdə qalıb mübarizəsini davam etdirəcəyini vurğulayıb. Amma Robert Koçaryanın mandatdan imtina etməsi onun deputat toxunulmazlığının olmayacağı anlamına gəlir ki, bu da onun yenidən həbsi üçün əlavə imkanlar yaradır.

Belə bir vaxtda Nikol Paşinyan nifrət və təhqir ritorikasından imtina etməyə hazır olduğunu açıqlayıb: “Ermənistanda erkən seçkilərin demokratik meyarlara uyğun keçirildiyi və seçkilərin son nəticələrinin Ermənistan xalqının iradəsini əks etdirdiyi qəbul olunur.

8-ci çağırış parlamenti 107 deputatdan ibarət olacaq ki, onlardan 71 mandat Vətəndaş Razılaşması Partiyası, 29 mandat “Ermənistan” bloku və 7 mandat “Şərəfim var” blokuna məxsus olacaq. Böhran şəraitində azad və rəqabətli seçkilərin keçirilməsi münasibətilə hər kəsi bir daha təbrik edirəm. “Ermənistan” və “Şərəfim var” bloklarını parlamentə gəlişi münasibətilə təbrik edirəm. Qeyd etmək istərdim ki, əvvəllər seçkilərdən sonra daxili siyasi böhran praktikasına alışdığımıza baxmayaraq, Ermənistan tarixində ilk dəfə seçkilər daxili siyasi böhrandan çıxmağın bir yolu oldu. Ermənistan Konstitusiya Məhkəməsinin seçkilərlə bağlı qəbul edilmiş qərarında nifrət ritorikası ilə bağlı bir neçə mühüm məqama yer verilib. Hər kəsin diqqətini bu qiymətləndirmənin yalnız seçkiqabağı kampaniyaya deyil, ümumiyyətlə, siyasi ritorikaya aid olduğuna yönəltmək istəyirəm. Qalib gələn siyasi partiyanın lideri və xalq tərəfindən seçilən baş nazir olaraq demək istəyirəm ki, parlamentdəki və xaricindəki qüvvələrlə işbirliyi qurmaq, nifrət ritorikasına son qoymaq istəyirəm. Xalq qarşısında borcumuzu yerinə yetirməyə və işbirliyinə hazırıq, həm parlament, həm də parlament xaricindəki qüvvələrlə dialoqda nifrət və təhqir ritorikasını rədd edirik”.

Lakin erməni mediası yazır ki, Paşinyan yenə yalan danışır. O, hakimiyyətini möhkəmləndirmək üçün keçmiş iqtidar təmsilçilərini həbs etdirərək məqsədinə nail olmaq niyyətindədir. Bunun ən real təsdiqlərindən biri Robert Koçaryanın və Serj Sarkisyanın yenidən həbs təhlükəsi ilə üzləşməsidir. Ermənistanda nəşr olunan “Past” qəzeti yazır ki, Paşinyanın addımları ölkəni yeni qarşıdurmaya aparır. Erməni ekspert Karine Arutyunyan da bu fonda ölkəsinin aciz duruma düşməsi və hakimiyyətin savadsızlığından gileylənib: “Nə qədər ki, mövcud hökumətin diplomatiyası olmayacaq, Ermənistanda hazırda baş verən proseslər davam edəcək. Sərhədlərdə oğlanlarımız ya öləcəklər, ya da xəstəxanalara düşəcəklər. Bir gün minlərlə azərbaycanlının Yerevandakı restoranlarda necə əyləndiklərini görəcəyik, yaxud da gölümüzdə balıq ovlamalarını... Sülh bölgəmiz, xalqımız üçün çox lazımdır. Amma təəssüf ki, bu hökumət müharibədən əvvəl barışı inkar etdi və indi diplomatiyasını düşmənə qarşı ittihamlar, təhdidlər və beynəlxalq birliyin çiyinlərində durmaqla göz yaşları üzərində qurur. Bu hökumətin heç bir diplomatiyası yoxdur. Hökumət ordusunu əzir, yüksəksəviyyəli mütəxəssisləri ordu sıralarından təcrid və onları daha az bacarıqları olan başqaları ilə əvəz edir. Bu meymunlara səs verən seçicilərin 54 faizi nə düşündü? İndi də ölkədə yeni repressiyalar başlanacaq”.

Erməni ekspertlərin fikrincə, Ermənistan vətəndaşları sabaha ümidsiz baxırlar. Bu isə o deməkdir ki, ölkəni yeni xaos gözləyir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

XXXII Tokio Yay Olimpiya Oyunları

# Tokioya fərəhlə, Bakıya zəfərlə

## Olimpiya Oyunlarının təntənəli açılış mərasimində Azərbaycan milli komandasının keçidi olub

**"Tokio-2020" XXXII Yay Olimpiya Oyunlarının təntənəli açılış mərasimində Azərbaycan milli komandasının keçidi olub.**

AZƏRTAC xəbər verir ki, komandamızın keçidi zamanı Azərbaycanın dövlət bayrağını cüdoçu Rüstəm Orucov və taekvondoçu Fəridə Əzizova daşıyıblar.

Azərbaycan dördilliyin zirvə yarışına 44 idmançı ilə qatılıb. Atletlərimiz "Tokio-2020"də idmanın 13 növü üzrə mübarizə aparacaqlar. "Tokio-2020"yə vəsiqələrdən 9-u cüdo, 7-si güləş, 5-i bədii gimnastikanın qrup hərəkətləri üzrə komanda, 1-i fərdi çoxnövçülük, 5-i boks, 3-ü karate, 2-si atletika, 2-si üzgüçülük, 2-si taekvondo, 2-si idman gimnastikası, 1-i güllə atıcılığı, 1-i şose velosipedi, 1-i qılıncoynatma, 1-i badminton, 1-i triatlon, 1-i stend atıcılığı (vald-kart) üzrə yarışlar üçün qazanılıb.

Xatırladaq ki, Azərbaycan yeddinci dəfədir Yay Olimpiya Oyunlarında iştirak edir. Olimpiya komandamız, həmçinin 6 Qış Olimpiya Oyunlarında gücünü sınayıb. Milli komandamızın Olimpiya Oyunlarında debütü "Atlanta-1996" Qış Olimpiya Oyunlarına təsadüf edib. Azərbaycan komandası medalların sayına görə ən böyük uğurunu "Rio-2016"da qazanıb. Həmin Olimpiadaya 56 idmançı ilə qatılan komandamız 1-i qızıl, 7-si gümüş və 10-u bürünc olmaqla ümumilikdə 18 medala sahib olub.







## Çingiz HÜSEYNZADƏ: "Yaxşı nəticələr gözləyirik"

**Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və icraçı baş katib Azər Əliyev Tokioda Atletlər kəndinə səfər ediblər. Bu barədə məlumatı Milli Olimpiya Komitəsi (MOK) yayıb.**



Bildirilir ki, Ç.Hüseynzadə və A.Əliyev "Tokio-2020" Yay Olimpiya Oyunlarına yollanan Azərbaycan nümayəndə heyəti ilə görüşüb. Görüş zamanı onlar idmançılara yaradılan şəraitlə və hazırlıqları ilə tanış olublar.

Ç.Hüseynzadə idmançılarla görüşdə onlardan uğurlu nəticələr gözləndiyini deyib: "Çətin şəraitdə sizin üçün yarışmağın ağır olacağını başa düşürəm. Ancaq yenə də sizdən böyük nəticələr gözləyirik. Sizin bir istəyiniz, tələbiniz, narahat olduğunuz hansısa məqam varsa deyə bilərsiniz. Atletlər Kəndində yaxşı şərait yaradılıb, sizin də qaldığınız yer yaxşıdır. Sizi görmək və uğurlar arzulamaq üçün gəldim. Yaxşı nəticələr gözləyirik".

## Olimpiadada avarçəkənlər və oxatanlar mübarizəyə rəsmi açılışdan əvvəl qoşulmuşlar

**Dünən Olimpiya Oyunlarında akademik avarçəkmə və kamandan oxatma yarışları start götürmüşdür.**






Akademik avarçəkmə üzrə kişilərin fərdi yarışının təsnifat mərhələsində norveçli Kyetil Borş ən yaxşı nəticə göstərmişdir - 6.54,46 dəqiqə. İkinci yerdə 6.59,49 dəqiqə nəticə ilə Stefanos Ntuskos (Yunanıstan), üçüncü yerdə isə almaniyalı Oliver Saydler (7.00,40 dəq.) qərarlaşmışlar. Qadınların yarışlarında ən yaxşı nəticəni (7.35,22 dəq.) Yeni Zelandiya idmançısı Emma Tviqq göstərmişdir. Avstraliyalı Maqdalena Lobniq (7.37,91 dəq.) və Niderland təmsilçisi Anna Sara Sofi Sauer (7.39,96 dəq.) müvafiq olaraq ikinci və üçüncü yerləri tutmuşlar.

Kişi cütlüklərinin yarışında ən yaxşı nəticəni Melvan Tvellar/Stef Bruninq göstərmişlər (6.08,38 dəq.). Bu nəticə həm də Olimpiya rekordudur. Sonrakı yerlərdə fransızlar Uşo Beşeron/Matyo Androdyas (6.10,45 dəq.) və Polşa idmançıları Miroslav Zentarski/Mateuş Biskup (6.11,22 dəq.) qərarlaşmışlar.

Qadın cütlüklərinin yarışında rumıniyalılar Nikoleta-Ankusa Bodnar/Simona Canina Radiş 6.49,79 dəqiqə nəticə ilə finiş xəttinə birinci çatmışlar. İkinci və üçüncü yerləri müvafiq olaraq niderlandlı cütlük Ros de Yonq/Liza Shenard (6.49,90 dəq.) və litvalılar Donata Karalene/Milda Valçyukayte (6.50,38 dəq.) tutmuşlar.

Kişi dördlüklərinin yarışında ilkin nəticələr belə olmuşdur: Polşa - 5.39,25 dəqiqə, İtaliya - 5.39,28 dəqiqə, NİderIand - 5.39,80 dəqiqə. Qadınların yarışında isə təsnifat mərhələsini Çin idmançıları qazanmışdır - 6.14,32 dəqiqə. Sonrakı yerlərdə Almaniya - 6.38,22 dəqiqə və Polşa (6.38,62 dəq.) qərarlaşmışdır.

Kişilərin kamandan oxatma yarışının ilkin mərhələsində cənubi koreyalı Ce Dok Kim 688 balla ən sərrast olmuşdur. ABŞ idmançısı Bredi Ellison 682 balla ikinci, daha bir Cənubi Koreya təmsilçisi Çjin Hyuk O 681 balla üçüncü olmuşdur.

Qadınların yarışında da Cənubi Koreya idmançıları fəqrlənmişlər. San An 680 balla Olimpiya rekordunu təzələmişdir. Sonrakı yerləri onun həmvətənləri Minhee Çan (677 bal) və Çhe-yon Kan (675 bal) bölüşmüşlər.

## Rusiyalı oxatan yarış zamanı huşunu itirdi



**Qadınların kamandan oxatma yarışları zamanı rusiyalı idmançı Svetlana Qomboyeva huşunu itirmişdir. Həkim müdaxiləsindən sonra o, özünə gəlmişdir.**

Rusiya olimpiyaçıları komandasının rəhbəri Andrey Konokotinin dediyinə görə, idmançı günvurması nəticəsində huşunu itirmişdir. Hazırda o, həkimlərin nəzarəti altındadır.

Təsnifat yarışlarında Svetlana Qomboyeva 630 bal nəticə ilə 45-ci yerdə qərarlaşmışdır.

## Koronavirusa yoluxanların sayı 106 nəfərə çatdı



**Tokioda Yay Olimpiya Oyunlarında akkreditə olunmuş şəxslər arasında yeni tip koronavirusa yoluxanların sayı 106 nəfərə çatmışdır.**

Təşkilat Komitəsindən verilən məlumata görə, daha 19 nəfərdə COVID-19 aşkar edilmişdir. Yoluxanlar arasında 3 idmançı və KİV-in 3 əməkdaşı var. Xəstələrin hamısı karantinə alınmışdır.

## Olimpiadaya daha iki idmançı buraxılmayıb

**Koronavirus pandemiyası daha iki idmançının "Tokio-2020" Yay Olimpiya Oyunlarını buraxmasına səbəb olub. Bunu Olimpiadanın Təşkilat Komitəsinin Mətbuat xidməti açıqlayıb.**



Məlumata görə, çimərlik voleybolu üzrə Çexiya cütlüyü yarışdan kənarda qalıb. Bunlar Barbara Hermanova və Marketa Slukovadır. Onların qrupdakı rəqiblərinə texniki qələbələr veriləcək. Qeyd edək ki, daha öncə meksikalı taekvondoçu Fernanda Agirre və niderlandlı skeytbordçu Kendi Ceykobs da eyni səbəbdən Olimpiada ilə vidalaşıblar.

# Beynəlxalq aləm

## Həkimlər antidepressantlara və psixoterapiyaya "əvəz" tapıblar

Mənəvi yorğunluqdan və fikirlərdən təkcə antidepressantlar və psixoterapiya kömək etmir. Həkimlərin fikrincə, depressiv vəziyyəti aradan qaldırmaq üçün daha bir səmərəli üsul var. Bu barədə CNN telekanalı xəbər verir.

Məlumata görə, həkimlər 23 müxtəlif tədqiqatın böyük miqyaslı təhlilini keçirmişlər və müəyyən olunmuşdur ki, fiziki təmrinlər depressiyadan müalicə zamanı antidepressantlar, yaxud psixoterapiya kimi təsir göstərir.

Mütəxəssislərin fikrincə, məsələn, üzgüçülük, qaçış, yoqa və s. məşqlər əhvali-ruhiyyənin və ümumi psixi vəziyyətin yaxşılaşdırılması üçün ən güclü vasitələrdən biridir.

## Almaniyada 176 nəfəri sel aparıb

Almaniyanın Şimali Reyn-Vestfaliya, Reynland-Pfalts və Bavariya regionlarında leysan yağışlarının törətdiyi daşqınlar nəticəsində həlak olanların sayı 176 nəfərə çatmışdır. Hakimiyyət orqanları həlak olanların sayının artacağından ehtiyatlanır. 155 nəfərin itkin düşdüyü bildirilir.

Almaniya Meteoroloji Xidmətinin məlumatına görə, yaxın günlərdə daşqınlardan zərər çəkmiş rayonlarda güclü yağışlar gözlənilir.

Adıçəkilən regionlarda axtarış-xilasetmə və bərpa işləri davam edir.

## İtaliyada fövqəladə vəziyyət rejimi ilin sonunadək uzadılıb



İtaliyada koronavirus pandemiyası ilə əlaqədar tətbiq edilmiş fövqəladə vəziyyət rejimi 31 dekabr 2021-ci iləcən uzadılıb.

TASS agentliyinin verdiyi xəbərə görə, hökumətin müvafiq qərarı barədə səhiyyə naziri Roberto Speransa məlumat verib: "Yenicə təsdiqlənmiş fərmanda fövqəladə vəziyyət rejiminin 31 dekabr tarixinə qədər uzadılması əks olunub".

Qeyd edək ki, iyulun 23-nə olan statistikaya əsasən, İtaliyada koronavirusa 5057 yeni yoluxma faktı qeydə alınıb. Virusa yoluxmuş 15 nəfər dünyasını dəyişib, 1483 nəfər isə müalicə olunaraq sağalıb. Ölkədə ümumilikdə 4302393 nəfərin COVID-19-a yoluxması təsdiqlənib, 127920 nəfər koronavirusun qurbanı olub.

## Türkiyəli xeyriyyəçilər 65 ölkəyə qurban əti göndəriblər




Türkiyənin İnsan Hüquqları və Azadlıqlarının Müdafiəsi və Humanitar Yardım Fondu (IHH) müsəlmanlar üçün müqəddəs Qurban bayramı günlərində dünyanın 65 ölkəsində ehtiyacı olan 2482480 nəfərə qurban əti paylamışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Fond xeyriyyəçilik fəaliyyətinə 1993-cü ildə başlamışdır. Cari ildə xeyriyyəçilərin 62062 ianəsi hesabına ölkə ərazisində və xaricdə ehtiyacı olan təxminən 2,5 milyon nəfərə yardım edilmişdir.

IHH əməkdaşları təkcə Qurban ətinin paylanması ilə məşğul olmur. Onlar həm də aztəminatlı ailələrin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasına yönəlmiş müxtəlif layihələrə dəstək verirlər. Bundan əlavə, fond Türkiyədə və dünyanın 20 ölkəsində 61836 valideynsiz uşağı geyimlə təmin edir.

## ÜST: dünya pandemiyanın daha bir dəhşətli fəsadı ilə üzləşəcək



Dünyanın başı koronavirusla mübarizəyə qarışdığından, hazırda bundan az təhlükəli olmayan digər xəstəliklər unudulmuşdur. Bir il ərzində uşaqların qızılca, göy öskürək və digər xəstəliklərə qarşı vaksinasiya templəri aşağı düşmüşdür. Bu barədə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) və BMT-nin Uşaq Fondunun hesabatında məlumat verilir.

Mütəxəssislərin dediyinə görə, ötən il 23 milyon uşaq əsas xəstəliklərdən immunizasiya olunmamışdır.

ÜST-ün hesabatında bildirilir ki, 17 milyon uşaq bir dənə də vaksin almamış, 66 ölkədə isə 57 kütləvi peyvəndləmə kampaniyasının keçirilməsi təxirə salınmışdır. 22,7 milyona yaxın uşağa difteriya, tetanus və göy öskürəyə qarşı vaksinin birinci dozası verilməmişdir. Müddətində qızılcaya qarşı peyvənd almayan uşaqların sayı isə 3 milyon artaraq 22,3 milyon nəfərə çatmışdır.

ÜST xəbərdarlıq edir ki, bu vəziyyət gec-tez xəstəliklərin kütləvi epidemiyasına çevrilə və çoxlu sayda qurbanlarla nəticələnə bilər.

*Hazırladı: Rizvan CƏFƏROV, "Azərbaycan"*

AZƏRBAYCAN www.azerbaijan-news.az

# Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi

**2021-ci il üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 iyun 2021-ci il tarixli 356s nömrəli sərəncamı ilə təsdiq edilmiş plana əsasən aşağıdakı ixtisaslara fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul elan edir.**

**Doktorantura**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Cəmi | Büdcə hesabına | |
|---|---|---|---|---|
| | | | əyani | qiyabi |
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 1 | - | 1 |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 1 | - | 1 |

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, cari ilin iyun ayında xarici dil fənni üzrə Dövlət İmtahan Mərkəzində doktoranturaya qəbul imtahanından keçid balı toplamış Azərbaycan Respublikasının vətəndaşları sənəd verə bilərlər.

**Dissertantura**

| İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Büdcə hesabına |
|---|---|---|
| 5611.01 | Cinayət hüququ və kriminologiya; cəza-icra hüququ | 2 |
| 5612.01 | Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti | 2 |

Fəlsəfə doktoru proqramı üzrə dissertanturaya qəbul olunmaq üçün ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən (magistr dissertasiyasını müdafiə edən), yaxud təhsili ona bərabər tutulan, müvafiq tədqiqat sahəsində müvəffəqiyyətləri olan və əsas iş yeri ali təhsil müəssisəsi, elmi müəssisə və təşkilat olan, azı 2 (iki) il elmi və ya elmi-pedaqoji iş stajına malik, cari ilin iyun ayında xarici dil fənni üzrə Dövlət İmtahan Mərkəzində dissertanturaya qəbul imtahanından keçid balı toplamış elmi və elmi-pedaqoji kadrlar müraciət edə bilərlər.

**Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:**

- *ərizə (Məhkəmə Ekspertizası Mərkəzinin rəisinin adına);*
- *kadrların şəxsi-qeydiyyat vərəqəsi;*
- *tərcümeyi-hal;*
- *2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);*
- *iş yerindən xasiyyətnamə;*
- *iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;*
- *çap olunmuş elmi işlərin siyahısı (surətləri əlavə edilməklə) və ya seçilmiş ixtisasa aid olan mövzu üzrə 15-20 səhifəlik referat;*
- *ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin notarial qaydada təsdiq olunmuş surətləri (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil sənədinin tanınması barədə Təhsil Nazirliyinin şəhadətnaməsi);*
- *şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olunmaq istəyənlər 2021-ci il sentyabrın 1, 2 və 3-də fəlsəfə fənnindən, sentyabrın 9 və 10-da isə ixtisas fənnindən imtahan verəcəklər.

Doktorantura və ya dissertanturaya sənədləri təqdim edən şəxslər qeydiyyatı Azərbaycan Respublikası Təhsil Nazirliyinin **www.portal.edu.az** saytına daxil olmaqla həyata keçirməlidirlər.

Doktorantura və ya dissertanturaya sənədlərin qəbulu **2021-ci il iyulun 26-dan avqustun 15-dək** hər gün (şənbə və bazar günləri istisna olmaqla) **saat 10:00-dan 17:00-dək** Məhkəmə Ekspertizası Mərkəzində qəbul ediləcəkdir.

Əlavə məlumat üçün Məhkəmə Ekspertizası Mərkəzinin Elmi-tədqiqat və metodiki iş şöbəsinə müraciət etmək olar.

**Ünvan: Bakı şəhəri, Xaqani küçəsi, 24.**
**Telefon: 498-72-32**
**Elektron ünvan: info@expert.gov.az**

# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## *açıq tender elan edir*

Tender keçirilir:

1. Oğuz rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması.
2. Yevlax rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması.
3. Balakən rayonunun bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, **www.etender.gov.az** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar hər LOT üzrə 150,0 (bir yüz əlli) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifinin dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tam adı, hüququ statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmamasına dair arayış;*
- *son bir il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən təqdim edilmiş arayış;*
- *iddiaçının mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması haqqında sənəd;*
- *iddiaçının satınalma prosedurunun başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;*
- *öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması barədə sənəd;*
- *analoji işlər üzrə son bir ildəki baş podratçı kimi dövlət satınalmarında iştirakı, bağlanılmış satınalma müqavilələrinin surəti, səlahiyyətli işçilərinin peşəkar fəaliyyəti haqqında təsdiqedici sənədlər təqdim olunmalıdır;*
- *işlərinin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **12 avqust 2021-ci il saat 11:00-a** qədər, tender təklifi ilə bank təminatı sənədlərini isə **20 avqust 2021-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **23 avqust 2021-ci il saat 11:00-da** elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***QEYD:*** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Azərbaycan" qəzetinin 08.04.2021-ci və 22.04.2021-ci il tarixli nömrələrində dərc edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankında Banklararası Kart Mərkəzinin arxitekturasında istifadə olunan mənəvi və fiziki cəhətdən köhnəlmiş texniki platformanın yenilənməsi məqsədilə mal və xidmətlərin satın alınması üzrə açıq tender ilə əlaqədar Tender komissiyasının 01.07.2021-ci il tarixli qərarına əsasən "SDC FZE" şirkəti qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Qarabağ" ordeni şəhidin anım günündə ailəsinə təqdim olunmuşdur



1979-cu ildə Tovuz rayonunun Bayramlı kəndində anadan olmuş Mehman Yusifov 1996-cı ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olmuş və 2002-ci ildən Xüsusi Təyinatlı Qüvvələrdə xidmət etmişdir.

2016-cı ilin Aprel döyüşlərində iştirak etmiş Mehman 2020-ci il sentyabrın 27-də Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda başlanan Vətən müharibəsində Cəbrayıl döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə, qəhrəmanlıq nümunəsinə, şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə Prezidentin sərəncamları ilə baş gizir Mehman Yusifov "Qarabağ" ordeni, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Anadan olmasının 42-ci ildönümü ilə əlaqədar bu günlər keçirilən anım mərasimində "Qarabağ" ordeni şəhidin ailəsinə təqdim olunmuşdur.

Qeyd edək ki, şəhidin 3 övladı - 2 oğlu və qızı var.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun hərbi qulluqçusu şəhid olub

İyulun 23-ü saat 16:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonu ərazisindəki mövqelərindən Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqelərini atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qarşı tərəfdən açılan snayper atəşi nəticəsində hərbi qulluqçumuz gizir Yaqublu Fərman Telman oğlu şəhid olub.

"Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin yaxınlarına dərin hüznlə başsağlığı verir.

Hazırda qeyd olunan istiqamətdə yerləşən Azərbaycan Ordusunun bölmələri tərəfindən cavab tədbirləri həyata keçirilir.

Ermənistan tərəfi bu kimi təxribat yolu ilə qəsdən iki ölkənin dövlət sərhədində vəziyyəti gərginləşdirmək məqsədi güdür.

Baş vermiş təxribata görə bütün məsuliyyət tam şəkildə Ermənistanın üzərinə düşür", - deyə Azərbaycan Müdafiə Nazirliyinin məlumatında bildirilib.

# Ermənistanın davamlı təxribatlara əl atması, bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri qəbuledilməzdir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin məlumatına əsasən, bu il iyulun 23-də Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun Ermənistan-Azərbaycan dövlət sərhədinin Kəlbəcər rayonu sahəsindəki mövqelərini atəşə tutub. Qarşı tərəfdən açılan snayper atəşi nəticəsində bir hərbi qulluqçumuz şəhid olub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, son zamanlar Ermənistan tərəfinin davamlı təxribatlara əl atması, Azərbaycan mövqelərini atəşə tutaraq bölgədəki vəziyyəti gərginləşdirmək cəhdləri qəbuledilməzdir və vəziyyətin bu şəkildə inkişafının bütün məsuliyyəti Ermənistanın üzərinə düşür.

Azərbaycan beynəlxalq sərhədləri çərçivəsində ərazi bütövlüyünü müdafiə etmək, habelə bölgədə sülh və təhlükəsizliyi təmin etmək üçün bütün lazımi addımları atmaq hüququnu özündə saxlayır.

Allah şəhidimizə rəhmət eləsin.

## Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 27.07.2021-ci il tarixdə gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 30.06.2021-ci il tarixdə "Bakı Metropoliteni" QSC-nin "Ulduz" stansiyasının yaxınlığında "D-3" dartı yarımstansiyasında hərəkətli alüminium jalüzün, qapı-pəncərənin və yarımstansiyanın havalandırma, VFR sisteminin quraşdırılması işlərinin açıq tender üsulu ilə satın alınmasına dair keçirilmiş müsabiqədə "GSS.AZ" MMC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilat ilə 23.07.2021-ci il tarixdə ƏDV daxil 215924,31 (iki yüz on beş min doqquz yüz iyirmi dörd manat 31 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 14 iyun 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə "Bakı Metropoliteni" QSC-nin 8 saylı şaxtasında metal konstruksiya işlərinin satın alınmasına dair təkliflər sorğusu üsulu ilə keçirilmiş müsabiqədə "BAKI MEXANİKİ-TƏMİR" ATİSC qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla 156194.80 ( yüz əlli altı min yüz doxsan dörd manat 80 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# "Azərbaycan İnvestisiya Şirkəti" ASC stok videolarla "AİŞ ilə İnvestisiya" videoçarxının yaradılması, scriptin hazırlanması (Azərbaycan və ingilis dillərində), səslənmə (Azərbaycan və ingilis dillərində), stok videolar əsasında videoçarxın hazırlanması və " Müşahidə Şurası" səhifəsinin yaradılması (Dizayn Frond-end işlərinin proqramlaşdırılması işləri) xidmətinin

## *kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir*

Maraqlanan şirkətlər 012 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğusu prosedurunda iştirak etmək üçün sənədlər 28.07.2021-ci il saat 17:00-dək qəbul olunur.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov, Bəxtiyar Əliyev, Elman Məmmədov və İmamverdi İsmayılov Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**GÜLXANIM FƏTƏLİ QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Milli Məclisin deputatı Aqil Abbasa əzizi

**GÜLXANIM FƏTƏLİ QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

TuranBank ASC-nin rəhbərliyi və kollektivi bankın Neftçilər filialının direktoru

**GÜNDÜZ RÜSTƏMOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi Aqil Abbasa və İradə Tuncaya əzizləri

**GÜLXANIM FƏTƏLİ QIZININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Dövlət Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi universitetin Tarix və onun tədrisi metodikası kafedrasının müdiri, dosent Sona Məhərrəmovaya anası

**MİNƏŞ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4460
Sifariş 1324
Qiyməti 40 qəpik